## Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

11-13
APREL
2020-ci il

№ 55 (4186)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# DÜNYA NEFT BAZARI ALT-ÜST OLANDAN SONRA AZƏRBAYCANIN KÖHNƏ TƏKLİF FORMATINA YENİDƏN QAYIDILDI...

■ səh. 5 ■

Prezident Azərbaycanın koronavirus əleyhinə gördüyü tədbirlərin dünyamiqyaslı hesabatını verdi - dünya ölkələri üçün bir çox nümunələr var...

■ səh. 3 ■

ATƏT PA Bürosu qondarma "DQR"də "seçki"ni niyə "təhlükəli" saydı...

■ səh. 7 ■

Rusiya XİN ermənilərin qondarma "DQR"də son seçki oyununu da iflic etdi...

■ səh. 8 ■

Qondarma "seçkilər" İrəvan üçün ikiqat zərbəyə çevrilir... İkinci tura hazırlıq Ermənistanı qarışdırır, Paşinyan iqtidarı hədəfdə...

■ səh. 9 ■

Kreml İrəvana qarşı daha sərt siyasətə start verir... ABŞ-ın Ermənistandakı bioloji laboratoriyaları yenidən gündəmdə...

■ səh. 10 ■

Vəziyyət hələ bundan da artıq sərtlik tələb edir - karantini pozan 11 mindən çox hərəkət iştirakçısı məsuliyyətə alındı

■ səh. 4 ■

Azərbaycan neftlə bağlı qiymət probleminin çözümünə mühüm töhfə verdi

■ səh. 11 ■

Koronavirusla ölüm-dirim mübarizəsinin banklara sanki dəxli yox imiş - kredit borclarına, hətta ipotekaya görə vətəndaşlara sərt tələbkarlıq davam edir

■ səh. 13 ■



■ səh. 8 ■

## Koronavirusla mübarizədə türk dövlətlərinin güclərini daha sıx birləşdirmək mərhələsi açıla bilər - təşəbbüs Azərbaycandan...




Avroittifaq «Şərq Tərəfdaşlığı» çərçivəsində korona ilə mübarizədə ən az yardımı Azərbaycana ayırdı - səbəb ölkəmizin varlı olması, ya...

■ səh. 4 ■

«Artsax»da koronavirus məsələsini niyə Lavrovla Mnasakanyan müzakirə edir, Azərbaycan niyə kənardadır...

■ səh. 6 ■



Rusiya qazın qiymətini salmaq barədə Ermənistanın birmənalı xahişindən hələ yayınır - səbəb...

■ səh. 5 ■

■ səh. 2 ■

"Vətəndaşların Prezidentə müraciət və təşəkkürləri bütün bu işlərin mərkəzində əsas koordinator qüvvənin məhz Prezident olduğuna verilən ictimai qiymətin bariz nümunəsidir"



■ səh. 6 ■

Legitim nəzarət altında olmayan Dağlıq Qarabağda koronavirusla mübarizənin beynəlxalq təminat altına alınması...



■ səh. 12 ■

Dünya Bankının koronavirus dövründə hesabatında Azərbaycanla bağlı iki mühüm məqam...



■ səh. 12 ■

Dünya Bankından Azərbaycanda kənd təsərrüfatının 5 faizdən çox artım proqnozu...



■ səh. 14 ■

Azərbaycanda özəl məktəbəqədər təhsil müəssisələrinin sayı azı üç dəfə artıb - müsbət, ya mənfi tendensiya...



# Azərbaycanda 65 nəfərdə koronavirusa yeni yoluxma qeydə alındı, 1 nəfər vəfat etdi, 58 nəfər sağaldı



**Azərbaycan Respublikasında 65 yeni koronavirus (COVID-19) infeksiyasına yoluxma faktı qeydə alınıb, bir nəfər vəfat edib, 58 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, koronavirus (COVID-19) üçün götürülən analiz nümunələri müsbət çıxmış 1960-cı il təvəllüdlü, ağciyər ödəmi və tənəffüs çatışmazlığı olan vətəndaşın səhhətinin stabilləşdirilməsi ilə bağlı aparılan reanimasiya tədbirləri nəticə verməyib.

Hazırkı dövrədək ölkəmizdə 991 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 159 nəferi müalicə olunaraq sağalıb, 10 nəfər vəfat edib, 822 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 26 nəfərin vəziyyəti ağır, 33 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 61342 test aparılıb.

# Aydın Quliyev: "Vətəndaşların Prezidentə müraciət və təşəkkürləri bütün bu işlərin mərkəzində əsas koordinator qüvvənin məhz Prezident olduğuna verilən ictimai qiymətin bariz nümunəsidir"

**Azərbaycanda koronavirusa qarşı mübarizə çərçivəsində həyata keçirilən tədbirlərlə bağlı vətəndaşların Prezidentə müraciət və minnətdarlıq məktubları mövcud işlərin mahiyyətinə tam uyğun ictimai reaksiya formasıdır.**




Bu fikirləri politoloq Aydın Quliyev dünyanı cənginə alan koronavirus pandemiyası fonunda ölkəmizdə aparılan genişmiqyaslı lokallaşdırma və təhlükəsizlik tədbirlərini baki-xeber.com-a şərh edərkən səsləndirib. A.Quliyev bildirib ki, cəmiyyətimiz və vətəndaşlar həyata keçirilən tədbirlərin hansı səmərələri vetdiyinin fərqinə varır: "Onlar Azərbaycan dövlətinin antivirus fəaliyyət proqram və planlarını başqa ölkələrlə müqayisə edir, başqa dövlətlərin və Azərbaycanın nail olduğu nəticələrin arasındakı fərqlərə lazımi diqqəti yetirirlər. Cəmiyyətimiz fərqindədir ki, Azərbaycanda koronavirusla mübarizə tədbirləri xeyli öncədən başladı, digər dövlətlər təhlükəni hələ lazımı qədər qiymətləndirmədiyi vaxtda həyata keçirilməyə başlandı".

Bizdəki tədbirlərin özünün qabaqlayıcı və məqsədyönlü xarakteri ilə insanların diqqətini cəlb etdiyini deyən politoloqun sözlərinə görə, cəmiyyətimiz ona da dəyər verir ki, Prezident bu tədbirlərin kompleks şəkildə həyata keçirilməsini təmin edə bilir:"Yəni həm birbaşa virusun yayılma imkanlarının və coğrafiyasının minimallaşdırılmasına yetərli təsir göstərən tədbirlər həyata keçirilir, həm insanların rifah və sosial müdafiəsi çərçivəsində işlər ara vermədən həyata keçirilir, həm insanların məşqulluq problemlrinin həlli qayğısına qalınır, həm iqtisadiyyatın dinamik hərəkət qabiliyyətini saxlamağa imkan verən işlər görülür, həm də sahibkarığın ziyan görməsinin qarşısı allnır. Bəlkə Azərbaycan yeganə ölkədir ki, koronavirusun ziyanlı təsirlərinə görə milyon yarımdan çox işləyən insanın əmək haqlarının mühüm hissəsini özü ödəyir, sahibkatlara kompensasiya verir, sosial xidmətlərin ən asan üsdullarını tapıb həyata keçirir".

**Həyata keçirilən tədbirlərin Azərbaycanın virusun təsirlərindən ən az itki ilə çıxmasını təmin etmək gücündə olduğunu deyən A.Quliyev onu da qeyd etdi ki, bütün bunlar cəmiyyətin gözləri qarşısında baş verir: "Vətəndaşların Prezidentə müraciət və təşəkkürləri bütün bu işlərin mərkəzində əsas koordinator qüvvənin məhz Prezident olduğuna verilən ictimai qiymətin bariz nümunəsidir".**

***Baki-xeber.com***

# DİN-dən xüsusi karantin rejimində müxaliflərin təqibi iddialarına tutarlı cavab...



**Son vaxtlar bir sıra kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə polisin respublikada tətbiq olunan xüsusi karantin rejimi çərçivəsində müxalifət nümayəndələrini guya təqib etməsi, barələrində qanunsuz olaraq hüquqi məsuliyyət tədbirləri görməsinə dair məlumatlar yayılır.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən baki-xeber.com-a verilən məlumatda bildirilir ki, obyektivlikdən sözsüz ki, kənar olan həmin iddiaların heç bir əsası yoxdur və bu cür qərəzli fikirlər cəmiyyəti çaşdırmaq məqsədi güdən dezinformasiyadan başqa bir şey deyil.

Xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına nəzarət həvalə edilmiş polis müvafiq sahədə üzərinə düşən vəzifələrlə bərabər cinayətkarlığa qarşı mübarizə, asayişin və təhlükəsizliyin təmini kimi gündəlik funksiyalarının icrasını da həyata keçirir.

Koronavirus pandemiyasının qarşısının alınmasına dair hökumət tərəfindən xüsusi Tədbirlər Planının icrasına başlandığı vaxtdan, polis ölkəyə quru və hava yolları ilə gəlmiş infeksiyaya yoluxmaqda şübhəli şəxslərin müalicə-profilaktika müəssisələrinə təxliyyəsi zamanı yüzlərlə təcili tibbi yardım avtomobilini, qonşu dövlətlərə gedən 5.200-dən çox yük nəqliyyat vasitəsini müşayiət edib. Virusa yoluxanların hospitalizasiya edildiyi və yoluxmaları ehtimal olunan şəxslərin karantinə yerləşdirildiyi 51 obyekti bu gün də sutkalıq mühafizə edir. Şəxslərin və nəqliyyatın şəhərlərarası və rayonlararası hərəkətinin məhdudlaşdırılması məqsədilə 733 postda, ictimai yerlərdə, küçə və prospektlərdə xidmət aparır.

Təkcə cari ilin mart ayı ərzində xüsusi karantin rejiminin tələblərinin pozulması faktlarına görə 5 cinayət işi üzrə 11 nəfər məsuliyyətə cəlb olunub, 154 nəfər inzibati qaydada həbs edilib, 33 minə yaxın şəxs barəsində digər tənbeh tədbirləri görülüb. Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna qanunsuz daxil olmağa cəhd edən 22 min avtomobil geri qaytarılıb.

Bütün bunlara paralel olaraq, polis özünün qanunla müəyyən edilmiş cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı fəaliyyətini də davam etdirir.

Son bir ayda qeydə alınmış 1186 cinayətin böyük əksəriyyəti açılıb, 1860 nəfər məsuliyyətə cəlb edilib, axtarışda olan 485 şəxs tutulub, 106 cinayətkar qrup zərərsizləşdirilib. Qanunsuz dövriyyədən 260 kiloqram narkotik vasitə çıxarılaraq bu əməllərə görə 353 nəfər məhkəmə məsuliyyətinə verilib.

Müxalifət nümayəndələrinin təqib edilməsi iddiasına gəldikdə isə qeyd olunmalıdır ki, əqidəsindən, siyasi partiyalara, ictimai birliklərə mənsubiyyətindən və digər hallardan asılı olmayaraq, cinayət, yaxud inzibati xəta törətmiş istənilən şəxs qanun qarşısında bərabərdir və yol verdiyi hüquqazidd əmələ görə də cavabdehlik daşıyır.

Polisin həyata keçirdiyi tədbirlər isə məhz cəmiyyətin dinc həyatının, hər bir vətəndaşın sağlamlığının, hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin cinayətkar qəsdlərdən qorunmasına xidmət edir.

# Prezident Azərbaycanın koronavirus əleyhinə gördüyü tədbirlərin dünyamiqyaslı hesabatını verdi - dünya ölkələri üçün bir çox nümunələr var...

**Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib. Koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunan Zirvə görüşündə Prezident İlham Əliyev çıxış edərək deyib:**

- ...Hörmətli həmkarlar, bildiyiniz kimi, keçən ilin oktyabrında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü Bakıda keçirildi. Azərbaycan bu Zirvə görüşündə sədrliyi öz üzərinə götürdü. Dərhal Azərbaycan sədr ölkə kimi fəaliyyətə başladı. Sədrlik etdiyimiz dövrdə dünyada təşkilatın nüfuzunun daha da artırılması, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində səylər göstəririk.

Koronavirus xəstəliyi sərhəd tanımayaraq dünya boyunca yayılmış və faciəvi nəticələrə gətirib çıxarmışdır. Pandemiya səbəbindən ölkələrimizdə və dünyada həyatını itirənlərə rəhmət diləyir, onların yaxınlarına başsağlığı verir və yoluxanların tezliklə şəfa tapmasını arzulayıram.

Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirir. Bu, bizim nümunəvi səviyyədə olan həmrəyliyimizin növbəti bariz təzahürüdür. Bizi birləşdirən ortaq soykök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır.

Koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir. Pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır.

Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atmışdır. Məhdudlaşdırıcı tədbirlər yaranmış şəraitə uyğun aparılmışdır. Mənim Sərəncamımla bu ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə aprelin 20-dək dayandırılmışdır. Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınmış və ya ləğv edilmişdir. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir. Ticarət və əyləncə mərkəzlərinin fəaliyyəti dayandırılmış, park və ictimai istirahət yerlərinə insanların girişi qadağan edilmişdir. Şəhərlərarası nəqliyyatın və Bakı Metropoliteninin fəaliyyəti tam dayandırılmışdır. Aprelin 5-dən etibarən ölkədə hərəkət məhdudiyyəti tətbiq olunur. Bir sıra dövlət və özəl qurumların fəaliyyətinə cəlb edilmiş şəxslər istisna olmaqla, bütün digər vətəndaşların yaşayış yerini tərk etməsinə konkret müəyyən olunmuş hallarda və vaxt çərçivəsində SMS icazə sistemi vasitəsilə icazə verilir.

Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir. Biz mart ayının əvvəlində təşkilatın mütəxəssislərini Azərbaycana dəvət etmişik. Qısa müddətdə dəvətimizə cavab verilmişdir. Belə ki, 9-13 mart tarixlərində təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyət ölkəmizdə səfərdə olmuşdur. Onlar ölkəmizdə vəziyyətlə tanış olaraq, görülmüş işlərə müsbət qiymət vermişlər. Ekspert missiyasının hazırladığı hesabatda da öz əksini tapmış tövsiyələr aidiyyəti dövlət qurumları tərəfindən nəzərə alınır.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, doktor Tedros Adhanom Qebreyesus tərəfindən mart ayının 23-də mənə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir.

Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayır. Azərbaycan qlobal həmrəylik nümayiş etdirərək koronavirusa qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır. Mart ayının 13-də Azərbaycan tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının strateji hazırlıq və cavab planı çərçivəsində COVID-19 müraciəti Fonduna könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutan donor sazişi imzalamışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk.

On altı il ərzində Azərbaycanın səhiyyə sistemində köklü işlər görülmüşdür, həkimlərin peşəkarlıq səviyyəsi yüksəlmişdir, 750-dən çox səhiyyə ocağı tikilmiş və ya tam təmir olunmuşdur. Hər il Azərbaycanda 5 milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir.

Koronavirus xəstələri 20-dən artıq dövlət xəstəxanasında müalicə olunurlar. Bu günlərdə 575 çarpayıdan ibarət olan, ölkəmizin ən müasir və "Yeni klinika" adlanan xəstəxanası onların ixtiyarına verilmişdir. Bu ilin mart ayında ölkəmizin 3 şəhərində üç yeni xəstəxana istifadəyə verilmişdir. Onların ümumi çarpayı sayı 500-dən çoxdur. Bu xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verilmişdir. Qısa müddət ərzində 6-sı dövlət, 4-ü isə özəl sahibkarlar tərəfindən tikilməklə, hər birinin 200 çarpayı yeri olan 10 müasir modul tipli xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulur.

Həkimlərimizin və tibb işçilərimizin koronavirus xəstəliyinə qarşı mübarizədə xidmətlərini yüksək qiymətləndiririk. Koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3, 4 və 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən qayğının təzahürüdür.

On beş mindən artıq Azərbaycan vətəndaşı müxtəlif ölkələrdən, o cümlədən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə təxliyə edilmişdir. Ölkəyə qaytarılmış bütün vətəndaşlarımız dövlət hesabına 4 və 5 ulduzlu mehmanxanalarda, xüsusi karantin zonalarında yerləşdirilmişdir. Eyni zamanda, birinci Avropa Oyunları zamanı açılmış Atletlər kəndində də karantinə alınmış şəxslər yerləşdirilir.

Beynəlxalq ticarət daşımaları istisna olmaqla, qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində qonşu dövlətlərlə yerüstü və hava nəqliyyatı bağlantıları müvəqqəti olaraq dayandırılmışdır. Digər ölkələrlə beynəlxalq hava sərnişin daşımaları da dayandırılmışdır.

İndiyə kimi ölkə üzrə 60 minə yaxın test keçirilmişdir. Əhalinin hər bir milyon nəfərinə düşən testin sayı 5200-dən artıqdır. Aparılan testlərin sayına görə dünyada 30-cu, hər milyon əhaliyə görə aparılan testlərin sayına görə 40-cı yerlərdəyik. Azərbaycanda testlərin aparılması üçün 18 laboratoriya fəaliyyət göstərir, onların 5-i yeni yaradılmışdır.

Hazırda dünyada tibbi ləvazimatların və avadanlıqların alınması probleme çevrilmişdir. İstehsal olunan avadanlıqlar və ləvazimatların satılması dövlətlər tərəfindən məhdudlaşdırılmışdır. Ona görə də daxili istehsal ehtiyacı yaranmışdır. Daxili tələbatı ödəmək üçün aprel ayının əvvəlində ölkəmizdə operativ şəkildə tibbi maska istehsalı müəssisəsi fəaliyyətə başlamışdır.

Mənim təşəbbüsümlə Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fondu təsis edilmişdir. Hazırda bu fonda köçürülmüş ianələrin həcmi 110 milyon manatdan və ya 65 milyon dollardan artıqdır. Dövlət vəsaiti ilə bərabər, ayrı-ayrı şəxslərin, sahibkarların və təşkilatların fonda könüllü ianəsi həm də böyük rəmzi məna daşıyır. Bu, Azərbaycan cəmiyyətində olan həmrəyliyin nümunəsidir.

Sirr deyil ki, koronavirus pandemiyası dünya ölkələrinin iqtisadiyyatına zərbə vurmuşdur. Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək və həm də makroiqtisadi və maliyyə vəziyyətimizi sabit saxlamaq üçün 2,5 milyard manat və ya təqribən 1,5 milyard dollar vəsait ayrılmışdır. Pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə Nazirlər Kabineti Tədbirlər Planı hazırlamış və təsdiq etmişdir. Əgər biz koronavirusun ən çox təsir etdiyi sahələri və fərdi sahibkarlıqla məşğul olan insanları nəzərə alsaq, görərik ki, 600 minə yaxın insan bu vəziyyətdən daha çox əziyyət çəkir. Sahibkarlara müraciət olunmuşdur ki, iş yerləri ixtisar edilməsin. Qırx dörd min sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsini dövlət ödəyəcək. Həmçinin dövlət dəstəyindən 290 mindən çox mikro və fərdi sahibkar faydalanacaqdır. Bu proqramlar, ümumilikdə, 600 minə yaxın insanı əhatə edir. Ümumilikdə, dövlət sektoru üzrə 900 mindən artıq işçinin, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilmişdir. İşsiz şəxslərin sosial müdafiəsi üçün 50 min ödənişli ictimai iş yeri yaradılacaqdır. Qeydiyyata düşmüş işsizlər üçün birdəfəlik ödəmələrə başlanmışdır. Banklar tərəfindən sahibkarlara yeni verilən 500 milyon manat və ya təqribən 300 milyon dollar həcmində kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcəkdir. Zəmanət verilən kreditlər üzrə faiz dərəcəsinin yarısı dövlət büdcəsinin vəsaitləri hesabına subsidiyalaşdırılacaqdır. Dövlət zəmanəti olmayan 1 milyard manat, təqribən 600 milyon dollar həcmində mövcud bank kreditləri üzrə faiz dərəcəsinin 10 faiz bəndi subsidiyalaşdırılacaqdır. Bunun üçün dövlət büdcəsindən 50 milyon manat və ya təqribən 30 milyon dollar vəsait ayrılmışdır. Bu tədbirin əsas məqsədi pandemiya səbəbindən faizlərin ödənilməsində çətinliklərlə üzləşmiş sahibkarlara kömək etməkdir. Sosial təcrid tədbirləri nəticəsində əhali tərəfindən elektrik enerjisi sərfi artmışdır. Bunu nəzərə alaraq kommunal ödəmələrə güzəşt edilmişdir. Bu proqramlar dövlətin dəstəyinin yalnız bir hissəsidir və digər dövlət dəstəyi mexanizmləri üzərində hazırda iş aparılır.



Hörmətli dostlar, hesab edirəm ki, bugünkü fövqəladə Zirvə görüşünün əsas məqsədi milli səviyyədə atdığımız addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birimizə dəstək göstərilməsi və xalqlarımız arasında həmrəyliyin möhkəmləndirilməsidir. Mövcud qlobal pandemiya şəraitində Türk Şurasının üzv dövlətləri özlərinə qapanmayıblar. Təşkilat olaraq Türk Şurası digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırdır. Azərbaycan ayrı-ayrı ölkələrə də öz dəstəyini göstərməkdədir.

Ölkələrimizin iqtisadiyyatı, ticarət münasibətlərimiz və idxal-ixrac əməliyyatları üçün nəqliyyat daşımaları mühüm əhəmiyyətə malikdir. Azərbaycan Türkiyə və Mərkəzi Asiya arasında etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq, tranzit yüklərin daşınması üçün əlavə tədbirlər görmüşdür. Qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində ölkələrimiz arasında beynəlxalq yükdaşımaları fasiləsiz olaraq həyata keçirilir. Pandemiyanın mənfi təsirlərinə baxmayaraq, 2020-ci ilin ilk üç ayı ərzində türkdilli ölkələrdən 180 min tondan artıq yük Azərbaycan vasitəsilə daşınmışdır ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 40 min ton çoxdur.

Səhiyyə xidmətləri sahəsində əməkdaşlığımız, o cümlədən tibb mütəxəssislərinin təcrübə mübadiləsi, birgə tibbi komissiyaların yaradılması üçün yaxşı imkanlar vardır. Bundan əlavə, sərnişin nəqliyyat daşımalarının müvəqqəti bağlanmasına görə ölkələrimizin ərazisində qalan bir-birimizin vətəndaşlarına dəstək və yardım göstərməyimiz vacibdir. Bizim gördüyümüz bu tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunması və pandemiyanın doğurduğu sosial-iqtisadi fəsadların yüngülləşdirilməsi, iqtisadiyyatlarımızın davamlı inkişafının təmin edilməsi məqsədi daşıyır. Ümid edirəm ki, ölkələrimiz və xalqlarımız bu ağır vəziyyətin öhdəsindən layiqincə gələcək və pandemiyaya qarşı qlobal mübarizəyə öz layiqli töhfəsini verəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

# Avroittifaq "Şərq Tərəfdaşlığı" çərçivəsində korona ilə mübarizədə ən az yardımı Azərbaycana ayırdı - səbəb ölkəmizin varlı olması, ya...

## Asif İbrahimov: "Ayrılan vəsaitin azlığını bizim iqtisadi qüdrətimizin daha çox olması ilə izah edirəm"

**Avropa İttifaqı koronavirus pandemiyası ilə mübarizə üçün Azərbaycana 14 milyon avro ayırıb. Bu barədə Avropa Komissiyasının Şərq Tərəfdaşlığı departamentinin direktoru Laurens Meredit Tvitter hesabındakı paylaşımında məlumat verib.**

Bildirib ki, ittifaq "Şərq Tərəfdaşlığı" proqramına üzv ölkələrə yeni növ koronavirus pandemiyası ilə mübarizə üçün təcili olaraq 80 milyon, qısamüddətli dəstək üçün 883 milyon avro vəsait ayıracaq. Ayrılan vəsaitdən Gürcüstan 183 milyon, Belarus 60 milyon, Moldova 87 milyon, Ukrayna 190 milyon, Ermənistan 92 milyon avro əldə edəcək. Siyahıdan göründüyü kimi, yardım ayrılan ölkələr arasında miqdarca ən az tranş ölkəmizə yönəldilib.

Bununla bağlı müxtəlif fikirlər səslənir. Bir çoxları bunu ölkəmizin siyahıdakı dövlətlərlə müqayisədə daha böyük iqtisadi imkanlara malik olması ilə izah edir. Bu barədə ekspertlər nə düşünür?

Beynəlxalq idarəetmə üzrə mütəxəssis, iqtisadçı Asif İbrahimov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, pandemiya ilə mübarizə üçün Aİ "Şərq Tərəfdaşlığı" proqramına üzv ölkələrə 883 milyon avro vəsait ayırıb: "Bu vəsaitin bölünməsi bir çox kriteriyalar əsasında həyata keçirilir. Siyahıda iqtisadi qüdrəti daha güclü ölkə kimi Azərbaycanı qeyd etmək olar. Söhbət adları siyahıda qeyd olunan ölkələrlə müqayisədən gedir. Çünki bizdə neft , qaz sənayesi güclü inkişaf edib. Məhz bu pandemiya dönəmində Azərbaycan öz daxili imkanları hesabına bütün sahələrə dəstək paketləri təqdim edib. Bütün bunları hökumətimiz heç yerdən qrant almadan həyata keçirib. Siyahıdakı ölkələrin bir çoxunun siyasi xətləri Avropa Birliyinə üzv olmağa yönəlib. Burada ölkələrin Aİ ilə münasibətlərinin hansı səviyyədə olması da əsas faktor kimi nəzərə alınıb. Həmin ölkələr Aİnin öhdəliklərini canlabaşla yerinə yetirir. Azərbaycan bu istiqamətdə bir qədər balanslı siyasət yürüdür. Azərbaycan və Belarusdan başqa ölkələrin çoxu Beynəlxalq Ticarət Təşkilatının üzvüdür. Ukrayna və Gürcüstan məhz bu cür yönümlü siyasət yürütdüklərinə görə, Rusiyanın basqı və embarqolarına tuş gəliblər.




Nəticədə hər iki ölkənin iqtisadiyyatına ağır zərbələr dəyib. Məhz buna görə də, Aİ hər iki ölkəyə müxtəlif proqramlar çərçivəsində dəstəyini artırır. Biz bunu viza rejiminin asanlaşmasında da görürük. Siyahıda Belarus bir qədər təəccüblü görünə bilər. Onların Aİ ilə münasibətləri yaxşı olmayıb. Amma son zamanlar bu istiqamətdə isinişmə hiss edilir. Azərbaycan antiböhran çərçivəsində büdcədən 2,5 milyard pul ayırıb. Bu, ölkə ÜDM-nin 3,1 faizini təşkil edir. Həmçinin, Aİnin ayırdığı ümumi dəstəkdən daha böyük rəqəm sayılır və MDB ölkələri sırasında pandemiya ilə mübarizəyə dəstək vermək baxımından birinci yer deməkdir. Mən əsas olaraq, ayrılan vəsaitin azlığını bizim iqtisadi qüdrətimizin daha çox olması ilə izah edirəm".

***Məhəmmədəli QƏRİBLİ***

# Vəziyyət hələ bundan da artıq sərtlik tələb edir - karantini pozan 11 mindən çox hərəkət iştirakçısı məsuliyyətə alındı

## Şəmsəddin Əliyev: "Baş verən hadisələr, vətəndaşların kütləvi şəkildə karantin rejimini pozması məsələləri göstərir ki..."

**Koronavirus pandemiyası ilə bağlı Azərbaycanda karantin rejiminin tətbiq edilməsi nəticəsində hərəkətin məhdudlaşdırılması vacib bir məsələ kimi həyata keçirilir. Ölkəmizdə vətəndaşlardan karantin rejiminin tələblərinə riayət edilməsi tələb olunsa da, bəzi vətəndaşlar buna əməl etmək istəmirlər.**



Baş Dövlət Yol Polisi İdarəsindən (BDYPİ) mətbuta verilən məlumata görə, son 9 gün ərzində xüsusi karantin rejiminin pozulmasına görə 11 318 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib. Bildirilib ki, ümumilikdə, 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən, paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 11 318 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

"Polisə Dəstək" İctimai Birliyinin rəhbəri, tanınmış hüquqşünas Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, dövlətin qoyduğu qayda-qanunlara hər bir vətəndaşın əməl etməsi zəruridir. Ş.Əliyev hesab edir ki, humanizm və insan haqlarının qorunmasını əsas götürən Azərbaycan dövləti vətəndaşlardan qanunu pozmamağı tələb edir, lakin bəzi vətəndaşlar buna əməl etmirlər: "Son 9 gün ərzində 11 318 hərəkət iştirakçısının qanunu pozması və bunun nəticəsində də inzibati məsuliyyə cəlb edilməsi vətəndaşların dövlətimiz, xalqımız qarşısında daşımalı olduğu məsuliyyəti dərk etməməsi ilə bağlıdır. Dövlət bütün bu məhdudlaşdırıcı tədbirləri, eləcə də ciddi karantin rejimini Azərbaycan vətəndaşlarının sağlamlığının qorunması, onların koronavirusa yoluxmasının qarşısının alınması üçün edir. Azərbaycan dövlətinin əsas hədəfi bu pandemiyadan Azərbaycan xalqını az itki ilə çıxarmaqdır. Bu gün karantin rejimi ilə ələqədar olaraq bütün güc orqanları, o cümlədən də polis gücləndirilmiş iş rejiminə keçib. Azərbaycan dövləti vətəndaşların karantin rejimini pozmaması üçün çox böyük maarifçilik işləri gördü. Bu maarifçilik işinə KİV də, QHT-lər də, "Polisə Dəstək" İctimai Birliyi də, ziyalılar da ciddi dəstək verdi, onlar da maarifçilik işləri həyata keçirdilər. Lakin bir qisim vətəndaşın maarifçilik işinə əhəmiyyət vermədiyi, yaxud onu dərk etmədiyi üzə çıxdı. Açıq şəkildə karantin rejiminin qaydalarını pozan insanlara rast gəldik. Karantin rejimini pozanlar olmasaydı, hər kəs qaydalara riayət etsəydi, nə inzibati məsələlərə, nə cərimələrə, nə də həbslərə zərurət yaranacaqdı. Azərbaycan dövləti humanizmi və insan haqları prinsipini önə çəkərək əvvəlcə maarifçilik işinə önəm verdi, bunun nəticə vermədiyini gördükdə isə inzibati cəza metodlarına əl atdı. 9 gündə 11 318 hərəkət iştirakçısının inzibati məsuliyyətə cəlb edilməsi başqa vətəndaşlar üçün bir dərs olmalıdır ki, onlar karantin rejimini pozmasınlar".

*"Hesab edirəm ki, koronavirus dövründə bəzi vətəndaşların belə məsuliyyətsiz davranışları cəzasız qalmamalıdır"*

Ş.Əliyev onu da qeyd etdi ki, bir hüquqşünas kimi heç zaman cəzaların sərtləşdirilməsinə tərəfdar olmayıb, amma koronavirus dövründə karantin rejimini pozan, bununla da insanların sağlamlığı üçün təhlükə yaradan insanlara qarşı daha sərt tədbirlərin görülməsi bir zərurətdir: "Baş verən hadisələr, vətəndaşların kütləvi şəkildə karantin rejimini pozması məsələləri göstərir ki, cəza tədbirlərinin daha da sərtləşdirilməsinə ehtiyac var. Hesab edirəm ki, koronavirus dövründə bəzi vətəndaşların belə məsuliyyətsiz davranışları cəzasız qalmamalıdır. Çünki söhbət dövlətə, xalqa, dövlətin qanunlarına münasibətdən gedir. Belələri öz davranışları ilə xalqa, dövlətə xəyanət etmiş olurlar. Mənə belə gəlir ki, Milli Məclis İnzibati Xətalar Məcəlləsindəki boşluqları aradan qaldırmaq üçün ona əlavələr etməlidir".

Ş.Əliyev onu da qeyd etdi ki, karantin rejiminin qaydalarına riayət etməyən vətəndaşlar polisin də, digər aidiyyəti güc strukturlarının əməkdaşlarının da işini çətinləşdirir, onların daha geniş tərkibdə işləməsinə gətirib çıxarır. O hesab edir ki, vətəndaş öz məsuliyyətini dərk edib qaydalara uyğun davransa, onda nə polis müdaxiləsinə ehtiyac qalar, nə də o, inzibati məsuliyyətə cəlb edilər.

***İradə SARIYEVA***

# Dünya neft bazarı alt-üst olandan sonra Azərbaycanın köhnə təklif formatına yenidən qayıdıldı...

**Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv ölkələrin nazirlərinin videokonfrans formatında keçirilən 9-cu iclasında 11 saata yaxın davam edən müzakirələrin yekununda yeni "Əməkdaşlıq Bəyannaməsi" Meksikanın təklif olunan həcmlərlə razılaşacağı şərtilə qəbul edilib.**




## *Vüqar Bayramov: "Hasilatın azaldılması ilə bağlı verilən qərarda əsas məqsəd növbəti mərhələlərdə neftin qiymətinin artımına nail olmaqdır"*

Yeni "Əməkdaşlıq Bəyannaməsi" gündəlik neft hasilatının 2018-ci ilin oktyabr ayı səviyyəsindən üç mərhələ ilə azaldılmasını nəzərdə tutur. Meksika istisna olmaqla, digər "OPEC+" ölkələri gündəlik neft hasilatının müxtəlif müddətlər və həcmlərdə azalması ilə bağlı razılıq əldə ediblər.

Energetika Nazirliyindən verilən məlumata görə, "Əməkdaşlıq Bəyannaməsi" qüvvəyə minəcəyi təqdirdə "OPEC+" ölkələri may-iyun aylarında gündəlik hasilatı 2018-ci ilin oktyabr ayı səviyyəsindən 23 faiz olmaqla 10 milyon barrel həcmində azaldacaqlar. Bu mərhələdə hasilat öhdəlikləri OPEC ölkələri üçün sutkada 6,085 milyon barrel, qeyri-OPEC ölkələri üçün isə 3,915 milyon barrel müəyyən edilib. Qeyd edək ki, OPEC və qeyri-OPEC ölkələrinin hasilatın məhdudlaşdırılması kvotalarına yalnız xam neft həcmləri daxildir. Budəfəki öhdəliklərdə kondensat həcmləri nəzərə alınmayıb.

Dünya neft bazarında balansın yaradılması və neftin qiymətinin sabitləşdirilməsi məqsədilə Azərbaycan da üzərinə yeni öhdəliklər götürüb. 2018-ci ilin oktyabr ayında gündəlik xam neft hasilatı 718 min barrel olan Azərbaycan yeni razılaşma çərçivəsində hasilatı həmin səviyyədən 164 min barrel azaltmalı olacaq. Bu müddət ərzində Azərbaycan gündəlik xam neft hasilatını 554 min barrel həcmində saxlamalıdır.

"Əməkdaşlıq Bəyannaməsi"ndə 2021-ci ilin yanvar ayından 2022-ci ilin aprelinədək isə "OPEC+" üzrə gündəlik neft hasilatının 2018-ci ilin oktyabr ayı səviyyəsindən 14 faiz olmaqla 6 milyon barrel azaldılması öz əksini tapıb. Bu müddətdə hasilat öhdəlikləri OPEC üçün 3,651 milyon barrel, qeyri-OPEC üzrə 2,349 milyon barrel nəzərdə tutulub.

Videokonfransa "OPEC+" ölkələri ilə yanaşı, ilk dəfə olaraq Norveç, Argentina, Kolumbiya, İndoneziya, Misir, Çad, Trinidad və Tobaqo kimi ölkələr də qatılıb. İclasda "OPEC+" formatından kənar neft ölkələrinə də bu prosesə qoşulmaq çağırışı edilib. Belə ki, "OPEC+" formatından kənar neft ölkələrinə gündəlik hasilatı 5 milyon barrel azaltmaq çağırışı edilib.

Bütün bunların fonunda, sözügedən razılaşmanın Azərbaycana əhəmiyyəti nədən ibarətdir? Bu razılaşma qiymət böhranını həll edə biləcəkmi? "OPEC+" formatından kənar neft ölkələri gündəlik hasilatı 5 milyon barrel azaltmaqla bağlı çağırışa əməl edəcəklərmi? Hansı ölkələrdən söhbət gedir?

*"Azərbaycan hətta az neft hasil etsə də, qiymətlər yüksək olduğuna görə daha çox gəlir əldə edə biləcək"*

Məsələyə münasibət bildirən millət vəkili Vüqar Bayramov buna bir neçə aspektdən yanaşdı: "Neft hasilatının azaldılması ilə bağlı verilən qərarda əsas məqsəd bazarda onun qiymətinin stabilləşməsi və növbəti mərhələlərdə neftin qiymətinin artımına nail olmaqdır. Bu gün inkişaf etmiş ölkələrdə, xüsusən də koronavirusun təsiri güclü olan ölkələrdə hansı müddətdə minimumlaşdırılması əhəmiyyətli olacaq. Bu, birbaşa neftin qiymətinə təsir edən faktorlardan olacaq. Təbii ki, "OPEC+" üzvü olan ölkələr neft hasilatının azaldılması ilə bağlı öhdəlik götürüblər. Azərbaycan da "OPEC+"a üzv ölkə olaraq belə bir öhdəlik götürüb. Əslində, Azərbaycan üçün neftin qiymətinin dünya bazarında stabilləşməsi və artması çox önəmlidir. Qiymətlər o səviyyədədir ki, hətta çox neft hasil edən ölkələr belə stabil gəlirlər əldə edə bilmirlər. Çünki, praktiki olaraq, neft bazarı çöküb, qiymətlər kəskin aşağıdır. "OPEC+" üzv ölkələrinin hədəfi qiymətlərin stabilləşməsidir. Əgər qiymətlər stabilləşərsə, Azərbaycan hətta az neft hasil etsə də, qiymətlər yüksək olduğuna görə daha çox valyuta, gəlir əldə edə biləcək. Azərbaycan 2010-cu ildə 51 milyon ton neft hasil edib. 2018-ci ildə isə Azərbaycan 38,8 milyon ton neft hasil edib. Bütövlükdə, son 8 ildə Azərbaycanda son neft hasilatı 10 milyon tona yaxın azalıb. Yaxın vaxtlarda bizim neft hasilatını artırmaq planlarımız yoxdur. Çünki Azərbaycan mavi qaz hasilatını artırmağı hədəfləyir.

Bu baxımdan qiymətlər stabilləşdiyi fonda Azərbaycanın neft hasilatını azaltması iqtisadiyyatımıza mənfi təsir göstərməyəcək. Hətta qiymətlərin artması müşahidə olunarsa, bu, Azərbaycanın daha çox gəlir əldə etməsinə imkan verəcək. Məqsəd qiymətlərin artmasıdır. Yəni qiymətlərin artmasına nail olsaq, bu zaman hasilatın azaldılmasına baxmayaraq, ölkəyə daha çox valyuta daxil olacaq. "OPEC+" formatından kənar neft ölkələrinin hasilatı azaltmaq barədə çağırışa nə dərəcədə əməl edəcəklərinə gəldikdə isə, bunu zaman göstərəcək. Bunu indidən demək çətindir. Burada söhbət Argentina, Kolumbiya, İndoneziya, Misir, Çaddan gedir".

***Vidadi ORDAHALLI***

# Rusiya qazın qiymətini salmaq barədə Ermənistanın birmənalı xahişindən hələ yayınır - səbəb...

**Təxminən bir il nəticəsiz danışıqlardan sonra Ermənistan hökuməti qazın qiyməti ilə bağlı Rusiya ilə danışıqları bərpa etmək niyyətindədir. Məlum olduğu kimi, əvvəlki danışıqlar Ermənistanın keçən il yanvarın 1-dən etibarən qiymət artımından sonra aldığı qazı eyni qiymətə almağa davam etməsi ilə başa çatmışdı.**



## *Elşən Əliyev: "Ermənistanın Rusiyanın müəyyən etdiyi qiymətdən başqa qiymətə qaz ala biləcəyi inandırıcı görünmür"*

Başqa sözlə, bu danışıqlar idxal qiymətinin dəyişməz qalması ilə başa çatdı. Beynəlxalq bazarda enerji qiymətlərinin azalmasından sonra hazırkı dövrü Ermənistan hökuməti qazın qiymətinin yenidən müəyyənləşdirilməsi üçün müzakirələr aparılmasına görə əlverişli vaxt hesab edir. Bu məqsədlə Ermənistan Baş nazirin müavini Mger Qriqoryan hökumət adından "Qazprom"un İdarə Heyətinin sədri Aleksey Millerə müraciət edib: "Enerji ehtiyatları, o cümlədən neft və qaz qiymətləri baxımından proqnozları və dünya bazarındakı mövcud vəziyyəti nəzərə alaraq Ermənistana tədarük olunan qazın qiymətinin dəyişdirilməsi ilə bağlı yeni danışıqlara başlamağı məqsədəuyğun hesab edirik. Xüsusilə Ermənistan-Gürcüstan sərhədində qazın qiymətinin azaldılması, eləcə də qaz haqqının milli valyuta ilə ödənilməsi qaydasının yaradılması məsələsinin müzakirəsini məqsədəuyğun hesab edirik".

Qeyd edək ki, Rusiya tərəfi, hələ ki, Ermənistanın qazın qiyməti ilə bağlı xahişinə cavab verməyib. Ermənistanın bu istiqamətdəki çabalamaları hər hansı nəticəni verə bilərmi?

İqtisadçı Elşən Əliyev qəzetimizə açıqlamasında bildirdi ki, Rusiya qaz amilindən, iqtisadi vasitədən daha çox, siyasi təzyiq aləti kimi istifadə edib:"Uzun müddət Ermənistanla Rusiya arasında da bu istiqamətdə anlaşılmazlıqlar olub. Rusiya qazın qiyməti ilə bağlı Ermənistana heç bir güzəşt etmədi. Görünən budur ki, dünyada enerjidaşıyıcılarının qiymətinin enməsi və koronavirus pandemiyasından istifadə edən Ermənistan fürsətçil davranmağa çalışır. Məhz indiki həssas məqamda bu mövzuya qayıtmağa başqa ad vermək olmaz. Əvvəl bu məsələni Paşinyan Rusiya prezidenti Vladimir Putinlə baş tutan telefon danışığı zamanı qabartdı. Erməni tərəfinin verdiyi açıqlamaya görə, telefon danışığı zamanı qaz təchizatı məsələsi müzakirə edilib. Onlar ümidlidilər ki, məsələni Rusiya prezidenti ilə müzakirə edib ortaq məxrəcə gələ biləcəklər. Paşinyan, həmçinin qazın dollarla deyil, rubl ilə alınması təklifini də irəli sürüb. Ancaq görünən budur ki, xahişlər səmərə verməyib. Ardınca Ermənistan müzakirəni Rusiya rəhbərliyi ilə deyil, "Qazprom"la aparmağa başlayıb. Bu il üçün idxal tariflərinə yenidən baxılma perspektivi çox azdır. Tərəflərin razılığı var ki, bu ilin sonuna qədər Rusiya qazı Ermənistana 165 dollara veriləcək. Bu vaxta qədər Ermənistan hakimiyyəti bunu güzəştli bir qiymət hesab edirdilər. Bu qiymət sabitdir və beynəlxalq bazarlarda baş verən dəyişikliklərlə heç bir əlaqəsi yoxdur. Başqa sözlə, qiymətlərin artıb-düşməsindən asılı olmayaraq, bu, Ermənistana verilən qazın qiymətinə təsir göstərə bilməyəcək. Bu baxımdan da, Ermənistanın Rusiyanın müəyyən etdiyi qiymətdən başqa qiymətə qaz ala biləcəyi inandırıcı görünmür. Çünki başqa alternativ də yoxdur". Ekspertin sözlərinə görə, müxalifət məhz Rusiya seçiminin üzərində dayandığına görə Paşinyanı sərt tənqid edir:"Alternativ variant kimi İran qazı təklif olunur. Amma siyasi səbəblərə görə Paşinyanın buna gedəcəyi inandırıcı sayılmır".

***Məhəmmədəli QƏRİBLİ***

# "Artsax"da koronavirus məsələsini niyə Lavrovla Mnasakanyan müzakirə edir, Azərbaycan niyə kənardadır...

**Rusiya və Ermənistan xarici işlər nazirləri Sergey Lavrov və Zöhrab Mnatsakanyan arasında telefon danışığı olub. Erməni KİV-nin verdiyi məlumata görə, telefon danışığı Ermənistan tərəfinin təşəbbüsü ilə baş tutub. XİN başçıları ölkələrində COVID-19 virusu ilə bağlı vəziyyəti müzakirə ediblər.**

Bundan başqa, nazirlər Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, habelə ikitərəfli münasibətlər, KTMT, MDB, Avrasiya İttifaqı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq barəsində fikir mübadiləsi aparıblar. Bildirilir ki, XİN başçıları ölkələrində COVID-19 koronavirus pandemiyası ilə bağlı vəziyyəti müzakirə ediblər. Bundan başqa, nazirlər Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, habelə ikitərəfli münasibətlər, KTMT, MDB, Avrasiya İttifaqı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq barəsində fikir mübadiləsi aparıblar.

Erməni mediası qeyd edir ki, müzakirə çərçivəsində qondarma "DQR" ərazisində pandemiyanın yayılması ilə də bağlı fikir mübadiləsi aparılıb. Azərbaycanın ərazi vahidinə aid olan ərazidə pandemiya ilə bağlı vəziyyətin iki kənar ölkənin XİN rəhbərinin müzakirə etməsi nə dərəcədə doğrudur və Azərbaycanın iştirakı olmadan belə bir fikir mübadiləsinin aparılması nəyin əlaməti sayıla bilər?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə bir hal doğrudan da olubsa, bunu kəskin qınamaq lazımdır:"Belə məzmunda müzakirənin aparılması heç bir beynəlxalq normaya sığmır. Bu bir daha Dağlıq Qarabağ probleminin yaradılmasında, onun həlli prosesinin dondurulmasında Rusiyanın xüsusi marağının olması ilə bağlı aydın təsəvvür yaradır. Sübut olunur ki, Ermənistan və qondarma qurum hər zaman Rusiyanın xüsusi qayğısı altındadır. Belə xüsusi yanaşma tərzi yalnız bundan xəbər verə bilər. Rusiya öz mövqeyini belə əsaslandıracaq ki, koronavirus pandemiyası bütün bəşəriyyətin bəlasıdır və bu istiqamətdə müzakirələrin aparılmasında hər hansı qəbahət ola bilməz. Lavrov kimi erməni təəssübkeşi olan diplomatdan isə nə desən gözləmək olar. Biz uzun müddətdir ki, onun erməni təəssübkeşi olduğunu aydın görürük. Bunu Azərbaycanın daxili

***Qabil Hüseynli:** "Yaxşı olardı ki, Lavrov bu narahatlığı koronavirusun tüğyan etdiyi zamanda qondarma qurumda keçirilən seçkilər zamanı ifadə edərdi"*



işlərinə müdaxilə kimi dəyərləndirə bilərik. Eyni zamanda bu, həmsədr ölkə kimi Rusiyanın bu problemin həllinə barmaqarası yanaşmanın göstəricisidir.

Yaxşı olardı ki, Lavrov bu narahatlığı koronavirusun tüğyan etdiyi zamanda qondarma qurumda keçirilən seçkilər zamanı ifadə edərdi. Bütün dünyada kütləvi tədbirlərin təxirə salındığı zamanda Ermənistan qondarma qurumda "seçki" şousu düzəltdi. Niyə həmsədr ölkənin XİN rəhbəri olaraq beynəlxalq qanunların tapdanmasına münasibətini açıqlamadı? Bütün bunlar bir daha göstərir ki, Rusiya problemin həllində obyektiv mövqe tutmur. Kəskin şəkildə buna etiraz edirəm".

**Məhəmmədəli QƏRİBLİ**

# Legitim nəzarət altında olmayan Dağlıq Qarabağda koronavirusla mübarizənin beynəlxalq təminat altına alınması...

**Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində koronavirus aşkarlanan kənd təcrid edilib. Erməni KİV-inin verdiyi məlumata görə, həmin kəndə giriş-çıxış qadağan olunub. Bildirilir ki, koronavirusayoluxan şəxsin təmasda olduğu insanların sayı məlum deyil.**



Onun ailə üzvləri və daha 20 nəfərlə təmasda olduğu ehtimal edilir. Qeyd edək ki, bunu erməni KİV-i etiraf edirsə, deməli, vəziyyət daha ağır ola bilər.

Faktiki olaraq legitim nəzarət altında olmayan Dağlıq Qarabağ və ətraf rayonlarda koronavirusla bağlı məsələnin beynəlxalq nəzarət altına alınmasına ehtiyac varmı?

Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, işğal altında olan ərazilərimizdə baş verən bütün proseslər bizi ciddi narahat edir:"Biz dəfələrlə dünya ictimaiyyətinə bəyan etmişik ki, ordakı vəziyyəti nəzarətdə saxlamaq lazımdır. Dəfələrlə orada terrorizmin stimullaşmasına uyğun olaraq addımların atılması, Suriyadan köçürülən terrorçuların yerləşdirilməsi, onlara təlimlərin keçilməsi ilə bağlı həy-

***Elşən Mustafayev:** "Bu bəşəri problemin nəzarətə götürülməsi üçün Dağlıq Qarabağda koronavirusla mübarizənin beynəlxalq təminat altına alınmasına böyük zərurət var"*

əcan təbili çalmışıq. Biz, həmçinin, bütün beynəlxalq təşkilatlara işğal altındakı ərazilərimizdən narkotrafik üçün istifadə olunduğunu bildirmişik. Təəssüflər olsun ki, bu istiqamətdə lazım olan tədbirlərin görülməməsi sonda bu mənzərəni yaradıb. Artıq sübut olunur ki, qondarma rejim heç bir beynəlxalq öhdəliyi, tədbirləri nəzərə almır. Biz bunu Ermənistanın martın 31-də Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində qondarma "prezident" və "parlament" seçkiləri zamanı bir daha gördük. Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı yeni bir pozuntu təşkil edən bu qanunsuz "seçkilər" heç bir beynəlxalq təşkilat və ölkə tərəfindən tanınmadı. Beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər, nüfuzlu KİV və görkəmli şəxsiyyətlər dünyada koronavirus pandemiyasının tüğyan etdiyi bir dövrdə təşkil olunan bu "seçkiləri" məqsədli təxribat, Qafqazda sülh və sabitliyə qarşı məsuliyyətsiz siyasi addım, münaqişənin sülh yolu ilə nizamlanmasına ciddi əngəl, beynəlxalq hüquq normalarına təhdid kimi dəyərləndirir. Ermənistanda referendum aprelin əvvəlində keçirilməli idi, amma təxirə salındı. Çünki koronavirusa görə xüsusi karantin rejimi tətbiq edildi. Amma işğal olunmuş ərazilərdə bu seçki şousu dayandırılmadı. Çox maraqlıdır ki, məhz "seçkilər"dən sonra Dağlıq Qarabağda ilk koronavirusa yoluxma halı aşkarlandı. Namizədlər arasında ikinci nəticəni göstərmiş Masis Mailyan keçirilən "seçkilər"də saxtakarlığın olduğunu bəyan etdi və ən maraqlısı budur ki, o öz tərəfdarlarının seçkilərdə iştirak etməməsini məhz koronavirusla əsaslandırdı. Bu artıq ona dəlalət edir ki, koronavirus seçkilərdən əvvəl də var idi, sadəcə, Ermənistan və qondarma rejim onu gizlədib.

Hətta belə məlumatlar var ki, koronavirus qondarma rejimin nəzarətində olan ərazilərdə dislokasiya olunan erməni ordusu arasında da yayılıb. Biz öz ərazilərimizdə istənilən vəziyyətin nəzarət altında olmasını istəyirik. Hazırda həmin ərazilər işğal altında olduğu üçün biz bunu təmin edə bilmirik. Bu səbəbdən də, bu bəşəri problemin nəzarətə alınması üçün Dağlıq Qarabağda koronavirusla mübarizənin beynəlxalq təminat altına alınmasına böyük zərurət var".

**Məhəmmədəli QƏRİBLİ**

# ATƏT PA Bürosu qondarma "DQR"də "seçki"ni niyə "təhlükəli" saydı...

**Ermənistanın Azərbaycanın işğal edilmiş ərazilərində qondarma "seçkilər" keçirməsi beynəlxalq hüquqa ziddir. Ermənistanın qondarma qurumu dünyada "müstəqil respublika" kimi tanıtmaq, qəbul etdirmək iddiası günü-gündən böyüsə də, beynəlxalq aləm Dağlıq Qarabağın Azərbaycan Respublikasının ərazisi olduğunu dəfələrlə təsdiqləyən sənədlər qəbul edib.**

Dağlıq Qarabağda keçirilən qanunsuz seçkilərə müxtəlif beynəlxalq qurumlardan reaksiyalar gəlir və həmin qurumlar "seçki"nin nəticələrini tanımadıqlarını bəyan edirlər.

Bu arada ATƏT Parlament Assambleyasının Bürosu Dağlıq Qarabağda keçirilən "seçkiləri" qanunsuz və ictimai sağlamlığa təhlükə adlandırıb. Bu barədə aprelin 9-da ATƏT Parlament Assambleyasının yaydığı açıqlamada qeyd olunub.

ATƏT PA-nın Bürosu qondarma "DQR"də keçirilən "seçki"ni "təhlükəli" adlandırıb, bu təhlükə nədədir?

***Elçin Mirzəbəyli:** "Ermənistan tərəfin, eləcə də işğalçı rejimin atdığı addımlar həm danışıqlar prosesinə ciddi zərbə vurur, həm də..."*



*"Artıq separatçıların "başını sığallamaq" dünyada heç kimə sərf etmir"*

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, siyasi icmalçı Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə mövzunu şərh edərkən bildirdi ki, əslində, separatçı rejimlərə və bütövlükdə, işğal prosesinə qarşı dünyada yanaşma dəyişməkdədir: "Biz bu təzahürləri bundan öncə də ayrı-ayrı beynəlxalq təşilatların və dünyanın aparıcı dövlətlərinin verdiyi bəyanatlarda da hiss etmişik. Xüsuslə də Katoloniya problemi ortaya çıxdıqdan və onun nəticələrinin nə qədər ağır ola biləcəyi Avropa siyasətçiləri üçün müəyyənləşdirildikdən sonra artıq Helsinki Yekun Aktının prinsipləri ilə manipulyasiya etmək ikinci plana keçib. Qondarma rejimin işğal altında olan Azərbaycan torpaqlarında keçirdiyi "seçki"yə gəldikdə isə, bu qanunsuz aksiyaya hazırda daha sərt münasibətin ortaya çıxdığının şahidi olduq. Bu faktor, təbii ki, bir neçə amildən qaynaqlanır. Birinci faktor Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq aləmdə daha tutarlı şəkildə ortaya qoyulmasıdır. Bu xüsusilə də Azərbaycan Prezidentinin Münhen Təhlükəsizlik Konfransında Ermənistanın Baş naziri Nikol Paşinyanla debatından sonra yaranan bir mənzərədir. Bildiyiniz kimi, həmin debatda Ermənistanın bütün informasiya, təbliğat siyasəti tamamilə iflasa uğradı, yeni bir mərhələnin yaranması üçün zəmin yarandı. Bu fakt da rol oynadı, digər tərəfdən, öncə qeyd etdiyim kimi, artıq separatçıların "başını sığallamaq" dünyada heç kimə sərf etmir. Çünki indiki şəraitdə qloballaşma faktoru da arxa plana keçməkdədir və milli dövlətçilik prinsipləri, ənənələri əsas götürülür. Belə olduğu təqdirdə dünyada ayrı-ayrı xalqların torpaqlarını işğal edərək, yaxud orada yaşayan etnik qrupların kiçik "dövlətlər" yaratması düşünürəm ki, artıq heç kimin marağında deyil. Bu həm də geosiyasi bir alət kimi özünüifadə etmək effektivliyini itirməkdədir. Yəni bu da mühüm amillərdən biridir. Digər bir faktorun isə, şübhəsiz ki, dünyada mövcud şəraitdə kifayət qədər çətin və mürəkkəb bir situasiyada Ermənistan tərəfin, eləcə də işğalçı rejimin atdığı addımlar həm danışıqlar prosesinə ciddi zərbə vurur, həm də Ermənistanın özünün, bütövlükdə, təhlükəsizliyini prinsip edtibarilə təhdid etməkdədir".

İndiki şəraitdə Ermənistanın onsuz da iqtisadi cəhətdən iflasa uğramış durumda olduğunu deyən E.Mirzəbəylinin sözlərinə görə, bu ölkənin ənənəvi himayəçisinin özünün belə ciddi iqtisadi, maliyyə problemləri var. Ekspertin bildirdiyinə görə, dünyada enerji qiymətlərinin kəskin şəkildə düşdüyü bir vaxtda hansısa başqa bir ölkə Ermənistana xüsusi diqqət ayırmaq niyyətində olmayacaq və bu defolt ölkənin iqtisadiyyatını ayağa qaldırmaq üçün çox böyük vəsaitlər lazımdır: "Ermənistan indi heç zaman olmadığı kimi, qonşularından asılı vəziyyətdədir. Regionda da, şübhəsiz ki, iqtisadi, iqtisadiyyatının inkişaf perspektivləri baxımdan ən öndə olan, lider ölkə Azərbaycandır. Ermənistan Azərbaycanla münasibətləri qaydaya salmayacaqsa, regionun güclü və aparıcı dövlətlərindən biri olan Türkiyə ilə də münasibətləri normallaşmaya doğru getməyəcək. İndki şəraitdə qonşu İranda baş verən proseslər də bu ölkəni çətin vəziyyətə qoyub. Belə olduğu təqdirdə İran rejiminin özü də Azərbaycanın və onun ənənəvi müttəfiqi Türkiyənin maraqlarını nəzərə almaq məcburiyyətindədir.

**Eyni zamanda, Azərbaycan, həmişə olduğu kimi, İrana olan münasibətdə özünün səmimi qonşuluq prinsiplərini ortaya qoyaraq və bu ölkənin də artıq Azərbaycana qarşı, belə deyək, arzuolunmayan hər hansı davranışlarının qarşısının alınması üçün növbəti dəfə bir zəmin yaratdı. İctimai rəy heç bir halda İran rejiminin, tutaq ki, Ermənistana sıcaq münasibətinin tərəfində olmayacaq. Bu da vacib faktorlardan biridir. Şübhəsiz, bu təqdirdə, təbii ki, Ermənistanın atdığı addımlar, ilk növbədə, onun özü üçün təhdidlər yarada bilər və bu proses davam edərsə, genişmiqyaslı hərbi əməliyyatların keçirilməsi də qaçılmaz ola bilər. Bu da nəticədə Ermənistan üçün daha ağır fəsadların yaranmasına gətirib çıxarar".**

*Leyla*
**QARAXANLI**

**Azərbaycan dövləti zaman-zaman türk birliyinin qorunmasında önəmli rol oynayıb və təsadüfi deyil ki, ölkəmiz həmişə siyasi, mədəni, mənəvi baxımdan türkoloji fikrin mərkəzi olub. O da məlumdur ki, türkdilli xalqların birliyinin daha da möhkəmlənməsində, onlar arasındakı əlaqələrin dərinləşməsində önəmli rol oynayan ideyaların, təşəbbüslərin əsas mərkəzi Bakı olub.**

# Koronavirusla mübarizədə türk dövlətlərinin güclərini daha sıx birləşdirmək mərhələsi açıla bilər - təşəbbüs Azərbaycandan...

O təşəbbüslər, ideyalar Bakıdan Türk dünyasına yayılıb. Bu danılmaz bir həqiqətdir.

Bütün dünyanın koronavirusla mübarizə apardığı, dövlətlərin bir-birilə maraqlanmadığı bir dövrdə Azərbaycan dövləti türkdilli dövlətlərə öz dəstəyini əsirgəmir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib. Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunub.

Bu fövqəladə Zirvə görüşü nəticəsində türkdilli dövlətlərin virusla mübarizədə qüvvələrini daha sıx birləşdirmək şansı açılıb. Bu məsələdə isə, qeyd etdiyimiz kimi, təşəbbüskar Azərbaycan dövlətidir.

Millət vəkili, tanınmış politoloq Aydın Mirzəzadə "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan dövlətinin bu təşəbbüsü bütün türkdilli dövlətlər tərəfindən müsbət qarşılanıb. Azərbaycanın təşəbbüsü ilə fövqəladə Zirvə toplantısının türkdilli dövlətlərin pandemiya ilə mübarizədə həmrəy olduğunu göstərən amil olduğunu deyən A.Mirzəzadə hesab edir ki, bu videotoplantı həm də türkdilli dövlətlərin bir-birinə daha yaxından kömək etməsi üçün imkanlar açacaq. "Türkdilli dövlətlər bu gün dünyada sıx əməkdaşlıq edən, bir-birinin möhkəmlənməsi üçün maksimum səy göstərən dövlətlər qrupudur. Dünya üçün problemli bir dövrdə türkdilli dövlətlərin birgə əməkdaşlıq formalarını müzakirə etməsi çox diqqətçəkən bir məsələdir. Aydındır ki, dövlətlərin hamısı təcriddə olduğuna görə budəfəki görüşün onlayn keçirilməsi qərara alınıb. Zirvə toplantının sədr olan Azərbaycan tərəfindən keçirilməsi təşəbbüsü isə bütün türkdilli dövlətlər tərəfindən müsbət qarşılandı. Şübhəsiz ki, Türk Şurasının videokonfrans vasitəsilə keçirilən fövqəladə Zirvə görüşündə əsas müzakirə aparılan məsələ koronavirusla mübarizə ilə bağlıdır. Burada, həmçinin, bu istiqamətdə təcrübələrin bölüşdürülməsi, ehtiyac olarsa, hansısa türkdilli dövlətə birgə kömək məsələsi də müzakirə mövzusudur. Həmçinin, hesab edirəm ki, burada koronavirus təhlükəsi bitəndən sonra dövlətlərin əməkdaşlıq məsələsi də müzakirə mövzularından biridir. İstənilən halda, dünya bəşəriyyət üçün ağır olan bir dövrdə türkdilli xalqların, dövlətlərin həmişə birgə olduqlarının, eyni zamanda, belə çətin günlərdə birləşməyi bacardıqlarının, qardaşlıq, qonşuluq siyasətini

***Aydın Mirzəzadə:** "Cənab Prezidentin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi bir daha sübut edir ki, Azərbaycan xüsusilə də türkdilli dövlətlərlə münasibətlərə xüsusi diqqət yetirir"*



uğurla davam etdirdiklərinin bir daha şahidi olur". A.Mirzəzadə hesab edir ki, bütün ağır vəziyyətlərdə türk xalqları birləşməyi, bir-birinə dəstək göstərməyi, birgə olmağı bacarırlar. Bu fövqəladə Zirvə görüşünün də belə ağır günlərdə keçirilməsinin türkdilli dövlətlərin birliyindən xəbər verdiyini deyən A.Mirzəzadənin sözlərinə görə, bu özü də dünya üçün bir örnəkdir: "Əlbəttə, bu, başqa dövlətlər, eyni zamanda, digər dil qrupu ölkələri üçün yaxşı bir nümunədir. Azərbaycan istərdi ki, dünyada mehriban qonşuluq və bir-birinə yardım əlini uzatmaq siyasəti bərqərar olsun. Konkret olaraq Azərbaycan öz nümunəsini göstərir, ölkəmiz bu gün türkdilli dövlətlərin hər biri ilə sıx münasibətdədir və birgə maraq doğuran məsələlər həmişə diqqətdə olub. Cənab Prezidentin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi bir daha sübut edir ki, Azərbaycan dost olduğu, xüsusilə də türkdilli dövlətlərlə münasibətlərə xüsusi diqqət yetirir".

***İradə SARIYEVA***

**"Rusiya Federasiyası Dağlıq Qarabağı müstəqil ölkə kimi tanımır". Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova aprelin 9-da keçirdiyi brifinqdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində seperatçı rejimin keçirdiyi "parlament və prezident seçkilərinə" münasibət bildirərkən deyib.**

# Rusiya XİN ermənilərin qondarma "DQR"də son seçki oyununu da iflic etdi...

***Məhəmməd Əsədullazadə:** "Onların yanaşmaları göstərir ki, Qarabağdakı qondarma "seçki" danışıqlara heç bir təsir etməyəcək"*



Rusiya XİN sözçüsü bununla bağlı tərkibinə Rusiya, Fransa və ABŞ-ın daxil olduqları ATƏT-in Minsk Qrupu həmsədrlərinin birgə bəyanatının olduğunu xatırladıb. Minsk Qrupunun bəyanatında qeyd olunurdu ki, heç bir həmsədr ölkə, yaxud da digər dövlət Dağlıq Qarabağı müstəqil və suveren dövlət kimi tanımır.

Zaxarova onuda bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması separatçı rejimin keçirdiyi "seçkilər"dən asılı deyil: "Hesab edirik ki, seçkilər əhalinin normal həyat fəaliyyəti üçün vacibdir. Bununla yanaşı, Rusiya Federasiyası, bildiyiniz kimi, Dağlıq Qarabağı müstəqil ölkə kimi tanımır. Onun statusu siyasi danışıqlar yolu ilə təyin edilməlidir. Bununla, yəni bütün problemlər kompleksi ilə Minsk Qrupu məşğul olur. Hesab etmirik ki, Dağlıq Qarabağ münaqişəsinin bundan sonra sülh yolu ilə nizamlanması prosesi hansısa mənada adıçəkilən tədbirdən asılıdır".

Göründüyü kimi, həmsədr ölkə olan Rusiya məlum mövqeyi ilə separatçı qurumdakı "seçkiləri" iflic etdi. Məhz Rusiyanın belə mövqeyi çox önəmlidir.

Sözügedən məsələni dəyərləndirən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın keçirdiyi qondarma "seçkilərə" beynəlxalq birliyin mənfi münasibəti göstərdi ki, rəsmi İrəvanın seçki şousu fiaskoya uğradı: "Rusiyanın mövqeyinə gəldikdə isə, rəsmi Moskvanın mövqeyi önəmlidir. Zaxarovanın bu bəyanatı indiki məqamda yerinə düşür. Baxmayaraq ki, Rusiya daha sərt mövqe sərgiləməli idi. Çünki digər ölkələrin XİN-ləri qondarma seçkilərə etiraz etdi. Təəssüf ki, biz bunu Rusiyanın timsalında görmədik. Ancaq buna baxmayaraq, gec də olsa, Rusiyanın mövqe sərgiləməsi yaxşı oldu.

*"Ermənistanın keçirdiyi qondarma "seçkilər"ə beynəlxalq birliyin mənfi münasibəti göstərdi ki, rəsmi İrəvanın seçki şousu fiaskoya uğradı"*

Minsk Qrupunun həmsədri olaraq Rusiyanın buna ciddi neqativ münasibət bildirməsinə ehtiyac var idi. Qarabağdakı qondarma "seçkilər" danışıqlar prosesinə mənfi təsir edir. Minsk Qrupunun həmsədrləri Ermənistana belə bir "seçki"nin keçirilməsinə imkan verməməli idi. Ancaq onların yanaşmaları göstərir ki, Qarabağdakı qondarma "seçki" danışıqlara heç bir təsir etməyəcək. Bəzi dairələr çalışırlar ki, Qarabağdakı separatçılar müstəqil tərəf olsun. Ancaq Azərbaycanın prinsipial mövqeyi bunun qarşısını alır".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Qondarma "seçkilər" İrəvan üçün ikiqat zərbəyə çevrilir... İkinci tura hazırlıq Ermənistanı qarışdırır, Paşinyan iqtidarı hədəfdə...

**Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan separatçı rejimlə Nikol Paşinyan iqtidarı arasında ziddiyyət, digər məqamlarla yanaşı, koronavirus pandemiyası səbəbindən daha da dərinləşməyə doğru gedir. Məsələ burasındadır ki, artıq bu virusun Dağlıq Qarabağda da yayılmasına görə məhz Nikol Paşinyan ittiham olunur.**

Qeyd edək ki, rəsmi məlumatlara əsasən, Qarabağda artıq 5 nəfərdə bu virus tapılıb, onlarla insan karantinə alınıb. Üstəlik, dünya koronavirus epidemiyası ilə mübarizə apardığı vaxtda Ermənistan işğal etdiyi bölgədə "prezident və parlament seçkiləri" keçirdi. Aprelin 14-də isə "prezident seçkisi"nin ikinci turu keçriləcək. Elə Paşinyan iqtidarına qarşı olanları da narahat edən əsas məqamlardan biri məhz budur. Onlar bildirir ki, baş verənlər Ermənistanın hazırki rəhbərliyinin siyasi mübarizədə qələbə qazanmaq istəyinin insan faktorundan daha üstün olduğunu növbəti dəfə nümayiş etdirdi. Burada diqqət həm də ona yönəldilir ki, Cənubi Qafqazda koronavirusun ən çox yayıldığı ölkə Ermənistandır. Burada, rəsmi məlumatlara əsasən, artıq 1000-dən yuxarı yoluxma halı var. Lakin media real rəqəmlərin və ölüm faktlarının gizlədildiyini yazır. Bu durumda Nikol Paşinyan, koronavirus təhlükəsinə rəğmən, keçmiş hakimiyyət üzərində qələbəni tam əldə etmək üçün işğal altındakı ərazilərdə "seçki"nin ilk turunu keçirdi. Yeri gəlmişkən, Qarabağda koronavirusa yoluxma faktını Ermənistan mediası məhz martın 31-də keçirilən "seçkilərlə" əlaqələndirir. Qeyd olunur ki, "seçki" günü Paşinyanın dəstəklədiyi namizədə səs vermələri üçün Ermənistanın müxtəlif yerlərindən Qarabağa əlavə "seçici"lər gətirilib. Virusun işğal altındakı bölgəyə keçidi də məhz belə baş verib.

"Seçki"nin ikinci turunun aprelin 14-də keçiriləcəyi gözlənilir. Növbəti turda birinci turun ən çox "səs" toplayanları iştirak edəcək: separatçı rejimin "baş naziri" Araik Arutunyan və "xarici işlər naziri" Masis Mailyan. Onlardan birincisi Nikol Paşinyana yaxın şəxsdir və sonda Ermənistanın yeni hakimiyyətinin işğal altındakı Qarabağ bölgəsini keçmiş hakimiyyətdən alacağı ehtimalı böyükdür. Amma bu zaman Qarabağa əlavə "seçici"lər göndəriləcəyi fonunda separatçı rejim daxilində koronavirusun daha geniş vüsətlə yayılması gözlənir. Çünki keçən dəfə olduğu kimi, bu dəfə də viruslu xəstələrin Ermənistandan Qarabağa keçməsi proqnozlaşdırılır. Bu əsasda da "Qarabağ klanı" buradakı insanları Paşinyana qarşı çıxarmağa çalışır. Hesab edilir ki, Qarabağda virus geniş yayılsa, buradakı sadə insanlar yaranmış vəziyyətə görə günahkar olan Paşinyana qarşı çıxacaq. Elə "Qarabağ klanı"nın da istəyi budur. Erməni siyasətçi Artur Osipyan da bildirir ki, koronavirus pandemiyasına görə fövqəladə vəziyyət elan olunmalı və "seçki" əvvəldən keçirilməməli idi: "Lakin "seçki"ni keçirdilər, indi də ikinci tura hazırlaşırlar. Fövqəladə vəziyyət elan etməyiblər, amma aksiyanın keçirilməsinin virus təhlükəsinə səbəb olduğunu deyirlər. Ermənistan hakimiyyəti başda olmaqla, bu komanda istəyir ki, saxtakarlığa heç kim etiraz edə bilməsin. Qarabağ erməniləri bunlardan narazıdır".

Digər tərəfdən, indiki halda Qarabağda "seçkilər"ə dünyanın sərt reaksiyası da erməni tərəfi üçün növbəti zərbə olub. Faktiki olaraq, bu "seçkilər" işğalçı Ermənistan üçün daxili və xarici siyasətdə fiasko ilə nəticələndi. Bu arada məsələyə münasibətini açıqlayan ATƏT Parlament Assambleyasının Bürosu Dağlıq Qarabağda keçirilən "seçkiləri" qanunsuz və ictimai sağlamlığa təhlükə halı adlandırıb. Belə ki, ATƏT PA rəsmi "Tvitter" səhifəsində ATƏT-in Minsk Qrupunun fəaliyyətini dəstəklədikləri haqqında fikir bildirib və qrupun Dağlıq Qarabağdakı "seçkilər" haqqında verdiyi bəyanatın mətnini paylaşıb. Bunun ardınca ATƏT PA ilk dəfə olaraq Azərbaycanın Dağlıq Qarabağ bölgəsində keçirilən "seçki"ləri sərt tənqid edib və onu haqlı olaraq qanunsuz adlandıraraq, koronavirus pandemiyası fonunda ictimai sağlamlığa təhlükə kimi xarakterizə edib. Daha əvvəl də dünya ictimaiyyəti tərəfindən məsələyə sərt reaksiya sərgilənib. Məsələn, məlumdur ki, "seçkilər" adı altında keçirilən kütləvi tədbirlərlə əlaqəli bəyanatlardan biri də Avropa İttifaqı tərəfindən verilib. Avropa İttifaqı bir daha xatırladıb ki, bu "seçki"nin baş tutduğu hüquqi baza və konstitusiya tanınmır, Dağlıq Qarabağın gələcək statusunun müəyyənləşdirilməsinə və ya davam edən danışıqlar prosesinin nəticəsinə xələl gətirə bilməz. NATO baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma "seçkilər"in NATO tərəfindən tanınmaması barədə yaydığı analoji məlumatda həmin hadisənin işğal edilmiş ərazilərin statusuna heç bir təsirinin olmamasını qeyd edib. İslam Əməkdaşlıq Təşkilatı da Dağlıq Qarabağ bölgəsində keçirilən qondarma "seçkilər"i tanımadığını və Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsində seçkilərin keçirilməsini BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müvafiq qətnamələrinə zidd hesab etdiyini bildirib. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası da Dağlıq Qarabağ regionunda qondarma "prezident və parlament seçkiləri"ni pisləyib. Qoşulmama Hərəkatının üzv ölkələri də martın 31-də Azərbaycanın zəbt edilmiş bölgəsində keçirilmiş qondarma "seçkilər"i tanımadıqlarını və qanunsuz hesab etdiklərini bildirib, bununla əlaqədar 120 ölkə tərəfindən birlikdə qətnamə qəbul ediblər. Qoşulmama Hərəkatı ərazilərin güc yolu ilə əldə edilməsinin yolverilməz olduğunu vurğulayaraq, Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyətin heç bir ölkə tərəfindən qanuni tanınmayacağını bəyan edib. Eləcə də Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosu Bakı Zirvə Görüşünün Yekun sənədinin 662-ci paraqrafına istinad edərək, Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə və Ermənistanla Azərbaycan arasında münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinə dəstəyini bir daha ifadə edib.

GUAM ölkələri, Norveç, Böyük Britaniya, Rumıniya, İtaliya da Azərbaycanın işğal edilmiş ərazilərində keçirilmiş qondarma "seçkilər"in tanınmaması barədə qəbul edilmiş bəyanatlarda Dağlıq Qarabağ bölgəsində martın 31-də keçirilmiş qondarma "prezident və parlament seçkiləri"nin qanunsuz olmasını bir daha təsdiq ediblər. Eyni mövqe Çex Respublikası, Estoniya, Latviya, Litva, Bolqarıstan, Finlandiya, Monteneqro, Belçika, İsveç, Xorvatiya, İran və digər ölkələr tərəfindən də sərgilənir, onlar "seçkiləri" qəti şəkildə pisləyir, Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edirlər. Hətta vəziyyət o yerdədir ki, Almaniya Xarici İşlər Nazirliyinin rəsmisi Maykl Seibert açıqlamasında seçkilərin Almaniya hökuməti tərəfindən birmənali olaraq tanınmadığını, atılan addımların yalnız münasibətlərin qəlizləşdirilməsinə yönəldiyini bildirib və Ermənistan hökumətini belə sülhə zidd addımlardan imtina etməyə çağırıb. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova isə keçirdiyi brifinqdə məsələyə yenidən toxunaraq bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması separatçı rejimin keçirdiyi "seçkilər"dən asılı deyil:"Rusiya Federasiyası Dağlıq Qarabağı müstəqil ölkə kimi tanımır. Onun statusu siyasi danışıqlar yolu ilə müəyyənləşdirilməlidir. Bununla da ATƏT-in Minsk Qrupu məşğul olur. Eyni zamanda, gələcək sülh prosesinin həllinin qeyd olunan hadisədən hər hansı bir şəkildə asılı olduğuna inanmırıq". Bunlar bir daha onu göstərir ki, Ermənistanın işğalçılıq siyasəti heç bir perspektivə malik deyil və beynəlxalq ictimaiyyət təcavüzkar ölkənin bu cür destruktiv fəaliyyətini qətiyyətlə rədd edir. Dünyanın yekdil rəyi budur ki, Azərbaycanın işğal olunmuş regionunda keçirilmiş qondarma "seçkiləri" heç kim tanımır və o, qanunsuz hesab olunur. Eləcə də qondarma "seçkilər"in keçirildiyi konstitusional və hüquqi çərçivə tanınmır və beləliklə, "seçkilər" heç bir hüquqi qüvvəyə malik deyil. Bundan əlavə, qondarma "seçkilər"in nəticələri davam edən danışıqlar prosesini və bölgənin statusunu əvvəlcədən müəyyənləşdirmir. Ən əsası isə, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə olunur. Münaqişənin BMT-nin Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında həllinə dəstək ifadə edilir. Bütün dünyanın işğalçı Ermənistanın "seçki" şousuna etirazı həm də o deməkdir ki, işğal altındakı ərazilərdə seçkilər yalnız Azərbaycan Konstitusiyası çərçivəsində keçirilə bilər.

Qeyd edilənlər həm də onu göstərir ki, dünya ictimaiyyəti rəsmi İrəvana "qırmızı kart" göstərir və işğalın, onun nəticələrinin heç vaxt qəbul edilməyəcəyi mesajını verir. Bununla bir daha təsdiq olunur ki, Qarabağ Azərbaycandır. Ermənistana başa salınır ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün tam olaraq bərpası ilə həll oluna bilər. Bütün bunlar qondarma "seçkilər" təşkil edən Paşinyan iqtidarının, əslində bu prosesdən ciddi zərbə aldığını da bir daha təsdiqləmiş olur. Buna görə Paşinyan iqtidarının Ermənistan daxilində də ciddi tənqid hədəfi olması qaçılmaz sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**

**Ermənistana satdığı qazın qiymətini qaldırmağa hazırlaşan Rusiya daha bir məqam üzrə İrəvanı küncə sıxışdırmağa hazırlaşır. Belə ki, Rusiyanın "Moskovskiy komsomolets" qəzetində Ermənistan ərazisində yerləşən ABŞ-ın bioloji laboratoriyaları barədə məlum yazı dərc edildikdən sonra işğalçı ölkənin özündə də məsələ yenidən aktuallaşıb.**

# Kreml İrəvana qarşı daha sərt siyasətə start verir... ABŞ-ın Ermənistandakı bioloji laboratoriyaları yenidən gündəmdə...

Xatırladaq ki, Moskvanın dəfələrlə təkid etməsinə baxmayaraq, İrəvan hələ də bu laboratoriyalara rusları buraxmır. İndi koronavirusun Ermənistanda tüğyan etməsi fonunda məsələ yenidən erməni mediasının gündəminə gəlib. Bu xüsusda Ermənistanın "168 jam" qəzeti yazır ki, laboratoriyaların Rusiya tərəfindən indiki vaxtda yenidən gündəmə gəlməsi təsadüfi deyil:"Rusiyalı mütəxəssislərin Ermənistan ərazisində yerləşən bioloji laboratoriyalara buraxılması məsələsi sonuncu dəfə Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Ermənistana ötən il baş tutan ikigünlük səfərində əsas müzakirə mövzularından biri oldu. Lavrov bildirdi ki, Moskva bu məsələ ilə bağlı tezliklə memorandum imzalamaq ümidindədir. Amma İrəvan buna tələsmir. Moskva da bundan çox qəzəblənir. Hələ 2008-ci ildən Pentaqon Ermənistanda 10-a yaxın bioloji laboratoriya yaradıb. Onlar Amerikanın müdafiə məqsədli "Müştərək iştirakla bioloji proqram"ı üzrə işləyir. Ermənistan hakimiyyəti bildirir ki, bioloji laboratoriyalar yalnız tibbi məqsədlərlə istifadə olunur. Amma Rusiya Moskva və İrəvanın bioloji təhlükəsizlik sahəsində qarşılıqlı fəaliyyətinin vacibliyini vurğulayıb. Bu kontekstdə Kreml dəfələrlə İrəvana bioloji silahın hazırlanmasını qadağan edən konvensiyanın mövcudluğunu da xatırladıb və bildirib ki, ABŞ qəti şəkildə bu konvensiyaya etiraz edir, dünyanın hər yerində ikitərəfli əsasda özünə tabe olan laboratoriyalar yaratmağa çalışır. Hazırda laboratoriyalar məsələsi Moskva və İrəvan arasında ciddi ziddiyyət predmeti olaraq qalmaqda davam edir və belə getsə, Moskva Ermənistana qarşı müəyyən cəza tədbirlərini işə sala bilər. Bu mənada, "Moskovskiy komsomolets" qəzetinin yenidən bu məsələni qabartması da təsadüfi sayıla bilməz".



Xatırladaq ki, "Moskovskiy komsomolets" Ermənistan Səhiyyə Nazirliyi Milli Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin 14 mütəxəssisinin virusa yoluxmasından sonra məsələni gündəmə gətirib. Nəşr yazır:"Hazırda Ermənistanda bütöv bir şəbəkə - Bioloji Təhlükələrin Azaldılması Proqramı (BTRP) çərçivəsində ABŞ hərbçilərinin pulu ilə yaradılmış və ya modernləşdirilmiş 12 bioloji laboratoriya fəaliyyət göstərir ki, bu da öz növbəsində ABŞ Bioloji Birgə İştirak Proqramının (CBEP) bir hissəsidir. Proqram 25 ölkədə fəaliyyət göstərir. Ermənistan buna 2008-ci ildə qoşulub. CBEP-in bəyan edilmiş məqsədi epidemiyaların qarşısını almaq, təhlükəli virusları, bakteriyaları, digər mikroorqanizmləri aşkar etmək və təsirlərini zərərsizləşdirməkdir. Hazırda İrəvanda üç laboratoriya var - Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzində, Dövlət Qida Təhlükəsizliyi Xidmətində və "Nork" Yoluxucu Xəstəliklər Klinikasında. Regional laboratoriyalar, məsələn, Gümrü, Vanadzor, İcevan və Martuni şəhərlərindədir. ABŞ bu şəbəkənin yaradılmasına təxminən 50 milyon dollar xərcləyib. Ermənistandakı laboratoriyaların ikili - hərbi və mülki təyinatlı obyektlər ola biləcəyi ilə bağlı ortaya dərhal şübhələr çıxıb. Hələ heç kim bu suallara dəqiq cavab verməyib ki, laboratoriyaların yaradılması niyə ABŞ-ın Səhiyyə Nazirliyi tərəfindən yox, Pentaqon tərəfindən maliyyələşdirilir. Amerikalı hərbi virusoloqlar niyə tədqiqatlarını aparmaq üçün uzaq ölkələrə getməli idilər - axı ABŞ-da bu cür laboratoriyaları təchiz etmək daha ucuz başa gələr? Məntiq qanunlarını rəhbər tutsaq cavab budur: həmin laboratoriyalarda, Quantanamo həbsxanasında olduğu kimi, ABŞ ərazisində qanun çərçivəsində məşğul olmağın mümkün olmadığı istətına "xarici əhali"nin düşməsi daha yaxşıdır. Moskva ABŞ-ın Ermənistanda biolaboratoriyalarının olması ilə bağlı narahatlığını dəfələrlə bəyan edib. İrəvan isə həmişə "hər şey nəzarət altındadır" cavabını verib. Baş nazir Nikol Paşinyanın da mövqeyi ondan ibarətdir ki, hazırda bu obyektlər Ermənistanın tam nəzarəti altındadır, Ermənistanın mülkiyyətidir və orada erməni mütəxəssislər işləyir. Bəs Ermənistanda nə baş verdi? Bu il martın 22-də məlum oldu ki, Səhiyyə Nazirliyinə məxsus biolaboratoriyada nilən işləri görmək olar. Və ikinci cəhət: heç kim təminat verməyib ki, təhlükəli virus təsadüfən (məsələn, zəlzələ nəticəsində) "azadlığa çıxa" bilməz. Əhali əziyyət çəkə bilər. Ona görə də risq alsus biolaboratoriyada işlər dayandırılıb və orada "son dezinfeksiya" aparılıb. Və bir həftə sonra 14 yoluxmuş işçi haqqında məlumat gəldi. Əlbəttə, Ermənistanda bir çoxlarında sual yarandı: necə yoluxa bilərlər? İstisna olunmur ki, bu, koronavirus üçün testlər zamanı baş verib. Bəlkə işçilərdən biri kənardan infeksiya gətirib və qalanlarını da yoluxdurub? Lakin sonra məlum oldu ki, onlar əhali ilə təmasda olublar və testləri artıq infeksiyaya yoluxmuş halda keçiriblər. Və ən yüksək təhlükəsizlik sinfinə malik olan laboratoriya özü infeksiya mənbəyinə çevrilib. Ermənistan ictimaiyyətinin suallarına hələlik nə Səhiyyə Nazirliyi, nə də laboratoriya rəhbərliyi cavab verib.

**Əsas sual isə budur: biolaboratoriya öz işçilərini virusdan qoruya bilmirsə, onda Ermənistanı necə qoruya bilər?". İndi Rusiyada daha çox narahatlıq hökm sürür ki, ABŞ Ermənistanda ona qarşı istifadə edə biləcəyi bioloji silahlar hazırlayır və onun Ermənistan ərazisindən tətbiqi Vaşinqton üçün daha məqbuldur. Bura hətta koronavirus təhdidinin özü də daxildir. İstənilən halda, bioloji laboratoriyalar məsələsi artıq qarşıdakı günlərdə Moskva və İrəvan arasında daha ciddi çəkişmə predmetinə çevriləcək. Rusiya bu dəfə İrəvanı daha sərt şəkildə sıxışdırmaqda israrlıdır.**

***Nahid SALAYEV***

# Azərbaycan neftlə bağlı qiymət probleminin çözümünə mühüm töhfə verdi

**Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv ölkələrin nazirlərinin videokonfrans formatında keçirilən 9-cu iclasından sonra, gözlənildiyi kimi, dünya bazarlarında neftin qiyməti artır. Son məlumatlara əsasən, artıq "Brent" markalı neftin qiyməti 40 dollara yaxınlaşır.**



Azərbaycan nefti də bahalaşır və 30 dollarlıq həddə yaxınlaşır. Qiymətlərin cəmi 1 gün ərzində belə bahalaşmasına diqqət çəkən ekspertlər hesab edir ki, artım qarşıdakı günlər ərzində də davam edəcək. Bunu şərtləndirən əsas səbəblərdən biri isə neft hasilatını təkcə OPEC+ ölkələri yox, digər istehsalçıların da azaltmasıdır. Bura ilk növbədə ABŞ daxildir. Qeyd edək ki, hasilatın azaldılması məsələsi ABŞ prezidenti Donald Trampla onun rus həmkarı Vladimir Putin və Səudiyyə Ərəbistanı kralı Salman bin Əbdüləzizlə yenidən müzakirə predmetinə çevrilib. ABŞ lideri hasilatın azaldılmasına razılıq verdiyini bəyan edib. Onun sözlərinə görə, OPEC + ölkələrinin dünyada neft qiymətlərini sabitləşdirmək üçün hasilatın azaldılması ilə bağlı razılığı mühüm əhəmiyyət kəsb edir. Tramp əlavə edib ki, xarici liderlərlə telefon danışığı bir saatdan çox davam edib. Bununla yanaşı, o qeyd edib ki, ABŞ, qlobal tənəzzülə səbəb olduğu üçün neftin qiymətinin aşağı olmasında maraqlı deyil: "Koronavirus pandemiyası səbəbindən neft məhsullarına tələbat 40% azalıb, ölkə hökuməti milyonlarla barrel nefti saxlamağa məcbur olub. Biz milyonlarla barrel nefti anbarlara göndərmişik, heç kim bunun mümkün olacağını düşünməmişdi".

Məlumata görə, bu aydan Rusiya gündəlik neft hasilatını 2 milyon barrel, Səudiyyə Ərəbistanı isə 4 milyon barrel azaldacaq. Bununla yanaşı xatırladaq ki, hasilatçı ölkələrin videokonfransına OPEC+ ölkələri ilə yanaşı, ilk dəfə olaraq Kanada, Norveç, Argentina, Braziliya, Kolumbiya, İndoneziya, Misir, Çad, Trinidad və Tobaqo kimi ölkələr də qatılıb. İclasda OPEC+ formatından kənar neft ölkələrinə də bu prosesə qoşulmaq çağırışı edilib. Prosesə bu qədər ölkənin qatılması və onlarım demək olar hamısının hasilatı azaltması artıq bazarlara təsir edir. Xatırladaq ki, OPEC+ ölkələrinin 11 saata yaxın davam edən müzakirələrinin yekununda yeni "Əməkdaşlıq Bəyannaməsi" qəbul edilib. Yeni "Əməkdaşlıq Bəyannaməsi" gündəlik neft hasilatının 2018-ci ilin oktyabr ayı səviyyəsindən üç mərhələ ilə azaldılmasını nəzərdə tutur. Meksika istisna olmaqla, digər OPEC+ ölkələri gündəlik neft hasilatının müxtəlif müddətlər və həcmlərdə azalması ilə bağlı razılıq əldə ediblər. Buna müvafiq olaraq OPEC+ ölkələri may-iyun aylarında gündəlik hasilatı 2018-ci ilin oktyabr ayı səviyyəsindən 23 faiz olmaqla 10 milyon barrel həcmində azaldacaqlar. Bu mərhələdə hasilat öhdəlikləri OPEC ölkələri üçün sutkada 6,085 milyon barrel, qeyri-OPEC ölkələri üçün isə 3,915 milyon barrel müəyyən edilib. Meksika isə "Əməkdaşlıq Bəyannaməsinə" uyğun olaraq bu mərhələlər üzrə müvafiq olaraq 400-320-240 min barrel həcmlərində müəyyənləşdirilmiş kvotalarla razılaşmayıb. Bu ölkə hasilatı daha az həcmdə azaldacağını bildirib. Meksikanın energetika naziri Rosio Nale qeyd edib:"OPEC katibliyinin neft qiymətlərini sabitləşdirmək üçün apardığı danışıqlarda Meksika qarşıdakı iki ay ərzində neftin gündəlik 100 min barrel azaldılmasını təklif edib. Mart ayında bəyan etdiyimiz gündəlik neft hasilatının həcmini 1,7 milyon barreldən 1,6 milyon barrelə endirəcəyik".

Qeyd edək ki, prosesdə fəal iştirak edən tərəflərdən biri də Azərbaycan olacaq. Dünya neft bazarında balansın yaradılması və neftin qiymətinin sabitləşdirilməsi məqsədilə Azərbaycan artıq üzərinə yeni öhdəliklər götürüb. 2018-ci ilin oktyabr ayında gündəlik xam neft hasilatı 718 min barrel olan Azərbaycan yeni razılaşma çərçivəsində hasilatı həmin səviyyədən 164 min barrel azaltmalı olacaq. Bu müddət ərzində Azərbaycan gündəlik xam neft hasilatını 554 min barrel həcmində saxlamalıdır. 2020-ci ilin iyul-dekabr aylarında isə OPEC+ üzrə gündəlik neft hasilatının 2018-ci ilin oktyabr ayı səviyyəsindən 18 faiz olmaqla 8 milyon barrel azaldılması razılaşdırılıb. Bu zaman kvotalar OPEC üzrə gündəlik 4,868 milyon, qeyri-OPEC üzrə isə 3,132 milyon barrel müəyyənləşdirilib. Azərbaycan bu dövrdə gündəlik istehsalını 131 min barel azaltmaqla 587 min barrel səviyyəsində saxlamalı olacaq. Əməkdaşlıq Bəyannaməsində 2021-ci ilin yanvar ayından 2022-ci ilin aprelinədək isə OPEC+ üzrə gündəlik neft hasilatının 2018-ci ilin oktyabr ayı səviyyəsindən 14 faiz olmaqla 6 milyon barrel azaldılması öz əksini tapıb.

Bu müddətdə hasilat öhdəlikləri OPEC üçün 3,651 milyon barrel, qeyri-OPEC üzrə 2,349 milyon barrel nəzərdə tutulub. Azərbaycan isə həmin dövrdə 98 min barrel azalma ilə hasilatı 620 min barrel həcmində saxlamaq öhdəliyini götürməli olacaq. Bununla OPEC+ formatı çərçivəsində tənzimləmə prosesində fəal rol oynayan Azərbaycan yeni öhdəliklər götürməklə qlobal neft bazarına dəstək verir. Digər tərəfdən, belə vəziyyət neft qiymətlərinin Azərbaycanın müəyyən etdiyi həddə olmasında da vacib rol oynayır. Bu mənada, cari il ərzində Azərbaycanın neft satışından nəzərdə tutduğu vəsaiti əldə edəcəyi proqnozlaşdırılır.

***Ramil QULİYEV***

# Dünya Bankının koronavirus dövründə hesabatında Azərbaycanla bağlı iki mühüm məqam...

**Dünya Bankı COVID-19-la mübarizə" adlı hesabat açıqlayıb. Hesabat Avropa və Mərkəzi Asiya ölkələrində virusöncəki və hazırkı iqtisadi durum analiz edilib. Azərbaycanla bağlı hissədə müsbət məqamlar yer alıb. Qeyd olunub ki, hazırkı şəraitdə ÜDM-nin 100%-i ətrafında valyuta ehtiyatlarının olması, aşağı xarici borc ölkənin əsas üstünlüyüdür.**

*"Valyuta ehtiyatları əlimizdə olan imkanlardan daha səmərəli istifadə etməyə və lazım gəldikdə problemlə daha uzun müddət keyfiyyətli mübarizə aparmağa şərait yaradır"*

Bank ekspertləri hesab edirlər ki, virusun yaratdığı böhrandan ən ağır zərbə ən kasıb 40%-lik (ən yoxsul 1 və 2-ci kvintil qruplar) ev təsərrüfatlarına dəyəcək. Hesabatda Azərbaycanla bağlı detallardan biri məzənnənin inflyasiya ötürücülüyü ilə bağlı (exchange rate pass-through) hesablamadır.

Sənəd müəlliflərinə görə, Azərbaycan iqtisadiyyatı məzənnənin inflyasiya ötürücülüyünə son dərəcə həssasdır.

Bununla belə, DB-nin yeni proqnozuna əsasən, Azərbaycanda gələn il xidmət sektoru 4,1%, 2022-ci ildə isə 5,6% artacaq. Bu il isə sözügedən sektor COVID-19 virusunun pandemiyasının yaratdığı vəziyyətlə bağlı cəmi 0,1% artacaq. Dünya Bankının mütəxəssislərinin fikrincə, turizm sektorunda aktivliyin azalması, virusla bağlı məhdudiyyətlər bu sahəyə zərbə vuracaq.

Maraqlıdır, DB-nin sözügedən hesabatında Azərbaycanla bağlı 2 mühüm məqamın yer almasını ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimov buna bir neçə aspektdən müsbət yanaşdı: "Məlum olduğu kimi, hazırkı dövrdə bütün dünya ölkələri koronavirus pandemiyası ilə mübarizə aparır.

Bir sıra ölkələr çətin vəziyyətlə üzləşiblər. Söhbət əsasən iqtisadi çətinliklərdən gedir.

**Belə vəziyyətdə, şübhəsiz ki, böyük valyuta ehtiyatları, aşağı xarici borc Azərbaycanın üstünlüyüdür.**

## *Fuad İbrahimov: "Bu, indiki vəziyyətdə ölkə iqtisadiyyatının dayanıqlığı, möhkəmliyi barədə əminlik yaradır"*




Bu, indiki vəziyyətdə ölkə iqtisadiyyatının dayanıqlığı, möhkəmliyi barədə əminlik yaradır. İqtisadi vəziyyəti stabilləşdirən, o cümlədən, sosialyönümlü layihələrin icra mexanizmini təmin edən faktorların olması müsbət göstəricidir.

Bu, əlimizdə olan imkanlardan daha səmərəli istifadə etməyə və lazım gəldikdə problemlə daha uzun müddət keyfiyyətli mübarizə aparmağa şərait yaradır.

**Hər iki göstərici bizim bu məsələdə beynəlxalq qurumların timsalında etibarımızı, digər tərəfdən, iqtisadi baxımdan dayanıqlığımızı təmin edəcək. Bununla belə, arzu edirəm ki, qısa zaman ərzində bu problem aradan qaldırılsın və bizim növbəti dəfə bununla sınağa çəkilməyimiz gündəmdə olmasın".**

*Vidadi ORDAHALLI*

# Dünya Bankından Azərbaycanda kənd təsərrüfatının 5 faizdən çox artım proqnozu...

**Kənd təsərrüfatı ölkənin sosial-iqtisadi problemlərinin həllində, xüsusən də regionlarda yaşayan insanların məşğulluğunda müstəsna rol oynayır. Məhz dünya enerji bazarında yaşanan proseslərin Azərbaycan iqtisadiyyatına mənfi təsiri nəticəsində iqtisadiyyatın digər sektorlarında işini itirən insanların bir hissəsinin yenidən kənd təsərrüfatına üz tutması da deyilənlərin bariz nümunəsidir.**

*"İlin sonuna kimi kənd təsərrüfatı sektorunda artım qeydə alına bilər"*

Son illər Azərbaycanda kənd təsərrüfatı sahəsində böyük uğurlar əldə edilib. Buna səbəb həyata keçirilən dərin aqrar islahatlar və sahəyə mütəmadi verilən dövlət dəstəyidir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib ki, Azərbaycan dövləti dünyada fermerlərə ən çox dəstək verən ölkədir. Bu səbəbdən də ölkəmizdə keçən il kənd təsərrüfatında məhsul istehsalı 14 faizdən çox artıb.

Dünya Bankının yeni proqnozuna əsasən, Azərbaycanda bu il kənd təsərrüfatı sektoru 5,5% artacaq. Qeyd olunur ki, 2021-ci və 2022-ci illərdə artım bu sektorda dəyişməz olaraq 5,4% səviyyəsində olacaq. Məlumat üçün bildirək ki, ötən il Azərbaycanda kənd təsərrüfatı sektoru 7,2% artıb və 7 836,7 mln. manatlıq məhsul istehsal edilib.

Bu il Azərbaycanın kənd təsərrüfatında istehsalın 5 faiz artacağına münasibət bildirən Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzinin şöbə müdiri Nicat Nəsirli bildirdi ki, aqrar sahədə qeydə alınan göstəricilər ötən ilə yaxındır: "Bu hal daha çox özünü pambıqçılıqda

## *Nicat Nəsirli: "Aqrar sahədə qeydə alınan göstəricilər ötən ilə yaxındır"*



göstərir.

**Baramaçılıqda isə vəziyyət pandemiya ilə bağlı fərqlidir. Ötən il 700 tona yaxın barama istehsal olundu. Bu il karantinlə bağlı baramada ötənilki nəticənin qeydə alınıb-alınmayacağı sual doğurur. Payızlıq əkin sahələri də ötənilki kimidir. İlin sonuna kimi kənd təsərrüfatı sektorunda artım qeydə alına bilər".**

*Günel CƏLİLOVA*

# Koronavirusla ölüm-dirim mübarizəsinin banklara sanki dəxli yox imiş - kredit borclarına, hətta ipotekaya görə vətəndaşlara sərt tələbkarlıq davam edir

**Hazırda əhalini narahat edən və maraqlandıran əsas məsələlərdən biri də banklara olan kredit borclarının taleyidir. Məsələ ondadır ki, koronavirus pandemiyası bütün dünyaya təsir etdiyi kimi, Azərbaycana da təsirsiz ötüşmür.**




## *Aydın Hüseynov: "Bankın müştərisi bu gün məlum səbəblərdən fəaliyyət göstərə bilmirsə, o zaman krediti necə ödəyə bilər?"*

Çünki həm karantin rejiminin tətbiqi və getdikcə sərtləşdirilməsi, həm də bir sıra iş yerlərinin bağlanması səbəbindən vətəndaşlar çətin vəziyyətlə üzləşiblər.

Belə vəziyyətin nə vaxta qədər davam edəcəyini konkret məlum deyil. Heç kim sabah nə olacağını, vəziyyətin nə zaman yoluna düşəcəyini bilmir. Əhalinin dövlət qurumlarında işləyən hissəsi maaşını alır, amma özəl sektor və ya günəmuzd işləyənlər çalışa bilmirsə, onların kredit ödəməsində problem yaranır. O baxımdan banklar güzəştə getməlidirlər.

Koronavirus pandemiyasından əziyyət çəkən əksər ölkədə banklar fiziki şəxslərin və biznes kreditlərinin ödənişlərində bir neçə aylıq fasilə tətbiq edirlər. Baxmayaraq ki, Azərbaycan hökuməti bankların tənzimləyici orqan olan Mərkəzi Banka bu il üçün nəzərdə tutulan ödənişlərini ləğv edib, sektordan müştərilərə yönəlik hansısa güzəşt addımlarının atılması istiqamətində heç bir təşəbbüs nəzərə çarpmır. Belə bir qeyri-müəyyən vəziyyətdə bankların öz müştəriləri ilə əvvəlki kimi davranmaları və borclarını vaxtında ödəmələrini tələb etmələri təəccüb doğurur. Sanki bir belə baş verənlərin banklara heç bir aidiyyəti yoxdur. Vətəndaşların müraciətlərinə, səslənən çağırışlara baxmayaraq, banklar xüsusi karantin rejimi dövründə əhalinin banklara olan kredit borclarını dondurmaq istəmirlər. Hətta ipoteka krediti götürənlərdən belə, ödəniş tələb edirlər. Bu arada, Milli Məclisdə hökumətin keçənilki fəaliyyət hesabatı müzakirə olunarkən deputatlar da bankların vətəndaşlara müəyyən güzəştlərə getməsinin zəruri olduğunu bildiriblər.

Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, indiki vəziyyətdə bankların müştərilərdən kredit borclarına görə ödəniş tələb etmələri doğru deyil: "Nəinki ipoteka, digər kreditlərlə bağlı ödənişlərin edilməsinin tələb edilməsi düzgün deyil. Şəxs işləyə bilmirsə və bu gün, yaxşı mənada, evdə qalmaq prinsipinə əməl edərək karantin rejiminə əməl edirsə, gəlir əldə etmirsə, o zaman banklar bunu başa düşməlidirlər. Bankın müştərisi bu gün məlum səbəblərdən fəaliyyət göstərə bilmirsə, o zaman krediti necə ödəyə bilər? Ona görə də, birmənalı olaraq, banklar güzəştə gedib kredit borclarını dondurmalıdırlar. İndiki situasiyadan ödənişlərlə bağlı tələblərlə çıxış etmək ədalətli deyil. Vəziyyət düzələndən sonra istər fiziki, istərsə də hüquqi şəxslər üzərlərinə düşən öhdəlikləri yerinə yetirəcəklər. Müəssisələr, sahibkarlar öz fəaliyyətini davam etdirib gəlir əldə edəcəklər. Ondan sonra öz bank öhdəliklərini yerinə yetirəcəklər və proses, əvvəlki kimi, öz axarı ilə davam edəcək. O cümlədən, ipoteka krediti götürənlər də ödəniş edəcək. Söhbət indiki vəziyyətdən gedir. Yəni karantin dövründə hüquqi və fiziki şəxs işləmirsə, gəlir əldə etmirsə, o zaman onlara güzəşt edilməlidir".

*"...banklar güzəştə gedib kredit borclarını dondurmalıdırlar"*

***Vidadi ORDAHALLI***

# Azərbaycanda koronavirusla mübarizə çərçivəsində pulsuz psixoloji yardım mərkəzləri...

**Koronavirus təhlükəsi hər kəsi təşvişə salıb. İnsanlar müxtəlif üsullarla bu xəstəlikdən qorunmağa çalışırlar. Kimi tibbi maskadan istifadə edir, kimi ictimai nəqliyyata ayaq basmır. Hətta evdən çölə çıxmayanlar da var. Doğrudur, koronavirus canlar almaqda davam edir. Ancaq xəstəlikdən sağalanlar da az deyil.**



## *Vəfa Məmmədova: "Bəzi insanlar pandemiya ilə bağlı baş verənlərə etinasız yanaşırlar"*

## *Nuriyyə Quliyeva: "Xəstəliyə yoluxan və ya yoluxmayan hər kəsin psixoloji yardıma ehtiyacı var"*

Deməli, immunitetdən, gigiyena qaydalarına əməl etməkdən savayı, psixoloji hazırlıq da bu məsələdə mühüm rol oynayır.

Koronavirusa yoluxma və ölüm halları insanlarda həm də psixoloji problemlərə yol açır ki, bu da əlavə xəstəliklərə səbəb ola bilər. Digər tərəfdən, insanların uzun müddət qapalı mühitdə qalması və təcrid olunması böyük psixoloji pozuntulara gətirib çıxara bilər.

Qeyd edək ki, dünya alimləri insanların psixikasının koronavirus təhdidi ucbatından alt-üst olduğunu təsdiqləyirlər. Buna görə pandemiyanın vüsət aldığı bir neçə dövlətdə insanlara tibbi xidmətlərlə bərabər psixoloji yardım da təklif edilir. Çünki bəzən insanlara maddi dəstəkdən daha çox mənəvi dəstək gərək olur. Karantin dövrü olduğu üçün bu boşluğu yalnız psixoloqlar doldura bilərlər.

Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi publik hüquqi şəxsin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı çıxış edərək bildirmişdi ki, vətəndaşlarımızla bərabər tibb işçilərinin də psixoloji dəstəyə ehtiyac var. "Bu baxımdan tibbi personalımıza və karantindəki vətəndaşlarımıza dəstək üçün Psixoloji Yardım mərkəzi yaradırıq. Bura təcrübəli mütəxəssisləri cəlb edirik. Karantin rejimində 3 mindən artıq vətəndaşımız var. Hazırda yoluxanların bir qismi karantin rejiminə əməl etməyənlərdir".

Məlumat üçün bildirək ki, bir neçə gün əvvəl Təhsil Nazirliyinin yeni 146-3 "Qaynar xətt" xidməti fəaliyyətə başlayıb. Koronavirus (COVID-19) infeksiyası ilə əlaqədar karantin rejimi elan olunduğundan, evdə qalan şagirdlər, eləcə də bütün vətəndaşlar mənəvi-psixoloji dəstəyə zərurət duyduğu hallarda sözügedən "Qaynar xətt" xidməti ilə əlaqə yarada bilərlər. Müraciət edən hər bir vətəndaşa məktəb psixoloqları tərəfindən telefon vasitəsilə psixoloji konsultasiya təşkil ediləcək, lazımi dəstəklə təmin olunacaqlar.

Nazirliyin psixoloji dəstəklə bağlı "Qaynar xətt"inə cəlb olunan psixoloq Vəfa Məmmədova artıq mərkəzə zənglərin daxil olduğunu bildirdi. "Mərkəz bir neçə gündür ki, fəaliyyətə başlayıb. Xidmət hələ yenidir. İnsanların müraciət etməsi üçün məlumatlı olmaları lazımdır. Hesab edirəm ki, bu, gözəl təşəbbüsdür".

Psixoloq bəzi insanların pandemiya ilə bağlı baş verənlərə etinasız yanaşmasına təəssüfünü bildirir: "Virusun yayılmasına boş baxmaq olmaz. Ən əsası, təşvişə düşməmək, soyuqqanlı olmaq lazımdır. Önəmli olan odur ki, özünütəcrid qaydalarına riayət edəsən, psixoloji durumunu pozmamağa çalışasan. Müsbət emosiyalarla özünü əhatə etməyə çalışmalı, mənfi yükdən uzaqlaşmalısan".

Peşəkar Psixologiya Mərkəzinin rəhbəri, klinik psixoloq Nuriyyə Quliyeva bildirdi ki, koronavirusun mənfi enerjisi ilə mübarizə aparmaq üçün, ilk növbədə, pandemiyanın özündən qorunmaq lazımdır. Hər gün onlarla insan bu barədə müraciət edir, koronavirusun psixoloji fəsadlarından şikayətlənir: "İnsanlara məsləhət görürəm ki, qadağalara tam əməl edərək, gigiyena qaydalarını, prosedurları yerinə yetirərək, özlərinə əminlik yaratsınlar. Məsləhətlərə riayət edərək düşünsünlər ki, elimdən gələni edirəm, virusdan sığortalanmağım yüksəkdir".

Həmsöhbətimizin sözlərinə görə, dünya ölkələrinin bir çoxunda psixoloji xidmət tətbiq edilib. Azərbaycanda da buna ehtiyac var: "Hətta karantinə yerləşdirilən insanların da hər biri ilə psixoloqlar işləyir. Xəstəliyə yoluxan və ya yoluxmayan hər kəsin psixoloji yardıma ehtiyacı var. Çünki sosial şəbəkələrdə çox insan özlərində koronavirusun simptomlarını hiss etdiklərini qeyd edirlər. Halbuki, bir qədər dərinə getdikdə, həkim qruplarında həkimlərin suallarını cavablandırdıqda, bunun, sadəcə, psixoloji fəsadlar olduğunu aşkar edirik. Ona görə karantin dönəmindən sonra da psixoloji yardıma ehtiyac olacaq. İndiki dönəmdə onlayn konsultasiyaların aparılması yerinə düşər".

***Günel CƏLİLOVA***

# Azərbaycanda özəl məktəbəqədər təhsil müəssisələrinin sayı azı üç dəfə artıb - müsbət, ya mənfi tendensiya...

**"Azərbaycanda son 5 ildə özəl məktəbəqədər təhsil müəssisələrinin sayı 3 dəfədən çox artıb". Bu, Nazirlər Kabinetinin 2019-cu ildə fəaliyyəti haqqında Milli Məclis qarşısında hesabatında bildirilib. Hesabatda qeyd olunur ki, ümumi təhsil müəssisələrində dövlət büdcəsi hesabına 5 yaşlı uşaqların məktəbəhazırlıq təhsili 2013-cü ildəki 24%-dən 2019-cu ildə 84,2%-ə çatdırılıb, 105 mindən çox uşaq təhsilə cəlb edilib.**

Növbəti ildə məktəbə hazırlığa cəlb edilmə göstəricisinin 90%-ə çatdırılması nəzərdə tutulur. Son 4 ildə məktəbəhazırlıq qruplarında işləyən 17 561 ibtidai sinif müəllimi təlimlərə cəlb edilib, yeni tədris materialları hazırlanaraq tətbiq olunub.

Məktəbəqədər təhsilin əhatə səviyyəsinin yüksəldilməsi ilə bağlı özəl təhsil müəssisələrinin fəaliyyəti daim təşviq edilib, son 5 ildə onların sayı 3 dəfədən çox artaraq 41-dən 159-a çatıb.

Məktəbəqədər təhsil müəssisələrinin sayının 3 dəfədən çox olmasına münasibət bildirən təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, uşaqların təlim-tərbiyəsi ilk növbədə ailədən başlayır. Daha sonra isə bu işi bağçalar və məktəblər yerinə yetirirlər. Azyaşlılar məktəbə gedən zaman onların bağçaya gedib-getməməsi həlledici rol oynayır: "Bağçaya gedən uşaqların məktəbə uyğunlaşması daha asan, təlim-tədris nəticələri isə üstün olur. Amma müstəqillikdən sonra dövlət uşaq bağçalarının özəlləşdirilməsi, fəaliyyətini dayandırması və infrastrukturdakı geriləmələr valideynləri özəl bağçalara üz tutmağa məcbur etdi.

Məlumat üçün bildirim ki, hazırda ölkəmizdə 1656 dövlət (717 kənd, 939 şəhər), 96 qeyri-dövlət (95 şəhər, 1 kənd) məktəbəqədər təhsil müəssisəsi var. Danılmaz faktdır ki, bağçalar körpələrin təlim-tərbiyəsində mühüm rol oynayır. Hər yaş dönəminin özünün xüsusiyyətləri, psixoloji, sosial, emosional standartları var. Uşaqlar o xüsusiyyətlərə, standartlara cavab verə-verə böyüyürlər. Beləcə, dünya praktikasında uşaq inkişafının standartları meydana çıxır. İndi həmin o standartların tətbiqi üçün bir müəssisə lazımdır. Amma 1656 dövlət uşaq bağçası cəmi 123 min uşağı qəbul etmək imkanına malikdir ki, bu da bağça yaşlı uşaqların cəmi 25 faizi deməkdir. Ona görə də son illərdə sürətlə özəl uşaq bağçalarının sayı artıb.

Kiçikyaşlıların bağçalara cəlb olunması baxımından Azərbaycandakı göstəricilər aparıcı dövlətlərlə müqayisədə çox aşağıdır. Hələ bağçaların sayının çox olduğu Bakı şəhərində məktəbəqədər yaş qrupunda olan uşaqların 25 faizi məktəbə bağçalardan gəlir. Təəssüflər olsun ki, maddi-texniki baza, binalar da bəs etmir ki, digər 75 faiz uşaq da bağçalara cəlb olunsun. Dünya təcrübəsindən qeyd edim ki, Amerikanı götürsək, bağçaların 80 faizi özəldir. Həmin bağçalarda olan şərait dövlət hesabında olan məktəbəqədər müəssisələrdən daha yaxşı qurulub. Dövlətin üzərinə az yük düşür.

Xatırladım ki, 2011-ci ildə Prezidentin sərəncamı ilə bağçalar Təhsil Nazirliyindən alınıb icra hakimiyyəti orqanlarına verildi. Bundan sonra bağçaların fəaliyyəti diqqətdən kənarda qaldı. Ancaq bizdə bu sahəyə kifayət qədər vəsait ayrılsa, özəl bağçaların şəbəkəsi genişləndirilməlidir. Elə-belə pərakəndə şəkildə olmamalıdır. İş adamları özəlləşdirmək istədikləri bağçaları standartlara uyğunlaşdırmalıdırlar. Bəzi vaxtlar özəlləşdirilən bağçalar məktəbəqədər müəssisə kimi də fəaliyyət göstərmir".

Həmsöhbətimiz xüsusi olaraq vurğuladı ki, özəl bağçalarda istər qidalanma, istərsə də tədris dövlət bağçaları ilə müqayisədə yaxşı təşkil olunub. Burda çalışan işçi - tərbiyəçilər uşaqlara daha həssas yanaşırlar. Lakin özəl bağçalar müstəqil kommersiya fəaliyyəti həyata keçirdiyi üçün, hansısa təhsil qurumunun onun fəaliyyətinə müdaxilə etməsi, yoxlanılması mümkün deyil. Qanunvericilik yalnız onların təhlükəsizlik, vergi, sanitar qaydalara riayət edib-etməməsini yoxlaya bilir. Təəssüf ki, heç bir qurum bağçalarla bağlı yoxlama aparmır.

## Kamran Əsədov: "Özəl bağçalarda istər qidalanma, istərsə də tədris dövlət bağçaları ilə müqayisədə yaxşı təşkil olunub"



## "Özəl bağçaların sayının çox olması..."

K.Əsədov hesab edir ki, bu gün özəl bağçaların sürətlə artması onlara olan tələbatla bağlıdır. Özəl bağçalarda qidalanmanın, təhlükəsizlik və infrastrukturun, təlim-tərbiyənin dövlət bağçaları ilə müqayisədə yüksək səviyyədə olması onlara marağı artırıb və nəticədə onların sayı ciddi şəkildə artıb: "Əslində, bu, rəqabət mühitinin inkişafı və keyfiyyətin yüksəldilməsi istiqamətində müsbət tendensiyadır. Özəl bağçaların sayının çox olması onlar arasında keyfiyyət rəqabətinin artmasına və uşaq cəlb etmək üçün qiymətlərdə enmələrə gətirib çıxaracaq.

**Məktəbəqədər təhsil Avropada yüksək ictimai əhəmiyyət kəsb etməklə sosial xidmətlər qrupuna məxsusdur və Avropa İttifaqının siyasətinin prioritetlərindən biridir. Avropa İttifaqının üzvləri olan dövlətlər 3 yaşadək olan bütün Avropa uşaqlarının üçdə birinin və bütün 3-6 yaşlı uşaqların 90 faizinin keyfiyyətli məktəbəqədər təhsillə əhatə olunmasını hələ 2010-cu ilədək vəzifə olaraq qarşıya qoydular, 2020-ci ilədək isə uşaqların məktəbəhazırlıq təhsilinə cəlbolunma göstəricisinin yüksəldilməsini təklif ediblər. ABŞ-da məktəbəqədər təhsil icbari hesab edilmir. Lakin Amerikada uşaqların məktəbəqədər təhsillə əhatə olunması həm dövlət, həm də özəl sektor tərəfindən həyata keçirilir".**

*Günel CƏLİLOVA*

# Daha az imkanlı təbəqələr Koronavirusla Mübarizə Fonduna pul köçürür, bəs villalarını, zəngin süfrələrini reklam edən şou əhli...

**Koronavirusla mübarizə apardığımız günlərdə hər bir Azərbaycan vətəndaşı dövlətə dəstək göstərmək üçün əlindən gələni edir. Bildiyimiz kimi, sadə vətəndaşlar, baş redaktorlar, kiçik sahibkarlar, eləcə də cəmiyyətin digər üzvləri Prezident İlham Əliyevin müvafiq fərmanı ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna maliyyə yardımları ediblər, etməkdə də davam edirlər.**

*"...şou-biznesçiləri koronavirusla mübarizə kampaniyasında görmürük"*

***Azər Həsrət:** "Şou əhlinin böyük əksəriyyətinin Koronavirusla Mübarizəyə Dəstək Fonduna maliyyə yardımları etməməsi cəmiyyətdə bir sıra haqlı suallar yaradır"*



Karantin rejimində yaşadıqları dəbdəbəli villalarda açdıqları bol süfrələrin başından sosial şəbəkələrdə canlı yayımlar yaradaraq camaata "evdə qal" deyən şou əhlinin xalqın ağır günündə kənara çəkilməsi halları yaşanır. Ümumiyyətlə, pandemiyadan əziyyət çəkən ölkələrdə şou-biznes nümayəndələrinin fəaliyyəti daha qabarıq görsənir və onlar gəlirlərinin çox böyük bir faizini koronavirusla mübarizəyə xərcləyirlər. Bizimkilər isə öz dəbdəbəli həyatlarını, bahalı villalarını, bol süfrələrini reklam etməkdən bir addım da olsa irəli gedə bilmirlər. Təkcə şou-biznesçilər deyil, həmçinin, 2-3 milyonluq villalarda oturan bəzi xalq artistləri də "əllərini ciblərinə salmaqda" deyəsən tələsmirlər.

Şou müğənniləri Koronavirusla Mübarizəyə Dəstək Fonduna maliyyə yardımları ediblərmi? Ümumiyyətlə, onlar arasında bu fonda pul köçürənlər varmı?

Google.az üzərindən axtarış versək də, cəmi bir nəticə ilə üzləşdik. Bu, Xalq artisti Röya Ayxanın koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində ölkəmizdə həyata keçirilən tədbirlərə qoşulması ilə bağlıdır. Məlumatlara görə, məşhur müğənni Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq fərmanı ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna 10 min manat məbləğində ianə edib. Bununla da müğənni, koronavirus xəstəliyinin ölkəmizdə geniş yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlərə öz töhfəsini verib.

Eyni zamanda, sənətçi bütün vətəndaşları COVID-19 virusu ilə mübarizə üzrə tədbirlərə qoşulmağa və bu beladan xilas olmaq üçün dövlətə öz vətəndaş dəstəyini göstərməyə çağırıb.

R.Ayxan istisna olmaqla, xəbər saytlarında hansısa bir şou müğənnisinin Koronavirusla Mübarizəyə Dəstək Fonduna maliyyə yardımları etməsi ilə bağlı məlumat əldə edə bilmədik. Məsələ burasındadır ki, hər hansı bir şou müğənnisi fonda vəsait köçürsəydi, ianə etsəydi, onu bütün şou-biznes, maqazin saytları, eləcə də sosial şəbəkələrdəki fanatları reklam edərdilər.

Məsələyə münasibət bildirən siyasi icmalçı, Əməkdar jurnalist Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, şou əhlinin fonda ianə etməməsi məsələsi cəmiyyəti ciddi düşündürən suallardan biridir. "Şou əhlinin böyük əksəriyyətinin Koronavirusla Mübarizəyə Dəstək Fonduna maliyyə yardımları etməməsi cəmiyyətdə bir sıra haqlı suallar yaradır. Biz kimin toylara hansı qiymətə getdiyini bilirik. Onların arasında yarımsaatlıq toya 20 min manata gedənləri var. Təsəvvür edin ki, onlar ayda 10 min manatlarla pul qazanmış adamlardır və təbiidir, zəhmət çəkib qazanırlar, halal xoşları olsun. Amma hələ bu azmış kimi, cənab Prezident də onların bir çoxuna dövlət hesabına təmənnasız mənzil hədiyyə edib. Həmin adamlar bu gün ölkənin, dövlətin bu çətin vəziyyətində, faktiki olaraq, gözə görünmürlər. Yaxud da televiziyalar onların malikanələrindən verilişlər hazırlayır, onlar da yeyib içib, deyib gülürlər, oxuyurlar, "biz də belə dəstək oluruq" deyirlər. Sən öz malikanəni ona-buna nümayiş etdirməklə heç nəyə dəstək olmursan, cibindən pul-para çıxarıb 3-5 adama dəstəyin olsun. Onların çoxu bu dəstəyi göstərə bilmirlər. Əlbəttə, burada söhbət hamıdan getmir. Yəni əksər üzdə olan, televiziya kanallarında gözlərimizi döyənək edən, hansı kanalı açırsan orada olan şou-biznesçiləri koronavirusla mübarizə kampaniyasında görmürük. Yəni onlar nə fonda pul köçürürlər, nə hansısa kasıba əl tuturlar, nə də ehtiyacı olan birinin qapısını döyüb ona yardım edirlər".

Bunun bizim cəmiyyət olaraq dəyərsiz adamlara layiq olmadıqları dəyəri verməyimizdən qaynaqlandığını qeyd edən A.Həsrətin sözlərinə görə, həmin adamlar da öz ictimai məsuliyyətlərini dərk etmirlər. "Düşünürəm ki, koronavirus pandemiyası arxada qalandan sonra Azərbaycan cəmiyyəti ciddi düşünməlidir. Düşünməlidir ki, o adamları yarımsaatlıq, 1 saatlıq 10 min manat verib toya nə üçün gətiririk? Niyə onların dalınca düşüb hansısa bir şadyanalıqda mütləq onların iştirakını arzu edirik, bunlar buna dəyərmi? Doğrudanmı bunlar bu qədər yüksək adamlardır?"

A.Həsrət hesab edir ki, xalqın, dövlətin ağrılı günlərində həmrəylik göstərməyən, dəstəyini əsirgəyən şou adamlarına, müğənnilərə dövlət tərəfindən mənzillər bağışlanmamalı, ictimaiyyət onlara diqqət göstərməməlidir.

***İradə SARIYEVA***

# "Bakcell"dən ölkə ərazisində onlayn satış və çatdırılma xidməti: şirkətdən növbəti "evdə qal" çağırışı

**"Bakcell" şirkəti ölkədə koronavirusa qarşı mübarizə tədbirlərini dəstəkləməyə davam edir. Bütün Azərbaycan vətəndaşlarına dəstək göstərmək məqsədilə icra olunan 360 dərəcə kommunikasiya və tədbirlər planı çərçivəsində "Bakcell" ölkənin bütün regionlarında onlayn satış və çatdırılma xidmətini təqdim edib.**



Karantin müddətində şirkətin abunəçiləri və "Bakcell" şəbəkəsinə yeni qoşulmaq istəyənlər dublikat və ya yeni SİM-kartı diler dükanı və müştəri xidməti mərkəzlərinə getmədən sifariş etmək imkanına malikdirlər. Sifariş olunan SİM-kartlar "Bakcell" şirkətinin diler nümayəndələri tərəfindən müştərilərin ev və ya ofislərinə çatdırılacaq. Qeyd edək ki, Bakı və regionların mərkəzlərində çatdırılma tamamilə pulsuzdur. Sifarişləri 555 nömrəsinə ("Bakcell" Əlaqə Mərkəzi) zəng etməklə və ya "Mənim Bakcellim" tətbiqetməsindən istifadə etməklə həyata keçirmək olar. Qeyd edək ki, yeni xidmətdən Bakı, Gəncə, Sumqayıt, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Bərdə, Yevlax, Samux, Goranboy, Ağcabədi, İmişli, Şirvan, Sabirabad, Göyçay, Şamaxı, İsmayıllı, Ağsu, Şabran, Xaçmaz, Quba, Siyəzən, Qəbələ, Zaqatala, Şəki, Qax, Balakən, Mingəçevir, Ağdaş, Lənkəran, Biləsuvar, Salyan və Naxçıvan MR ərazisində istifadə etmək olar. Xatırladaq ki, "Bakcell" ölkədə koronavirusa qarşı mübarizə üzrə həyata keçirilən genişmiqyaslı tədbirləri dəstəkləmək üçün bir sıra mühüm layihələr həyata keçirib. Belə ki, şirkət Koronovirusla Mübarizəyə Dəstək Fonduna 1.5 milyon manat ianə etməklə yanaşı, Azərbaycana süni tənəffüs aparatları, bədən hərarətini məsafədən ölçən xüsusi keçid-buraxılış avadanlıqları, eləcə də koronovirusa yoluxmanı yerindəcə müəyyən etməyə imkan verən 3000 ədəd ekspress-testin gətirilməsi üçün iri həcmdə vəsait ayırıb. Bundan əlavə, "Bakcell" karantin mərkəzlərində çalışan tibbi heyətə təşəkkürünü ifadə etmək üçün açıqca vasitəsilə mesajlar göndərib və bütün karantin mərkəzlərinin həkimlərinə və müxtəlif karantin mərkəzlərində karantində saxlanan vətəndaşlarımıza isə ödəmə kartları hədiyyə edib. "Bakcell" abunəçiləri öz telefonlarının ekranlarında "evdə qal" çağırışını görürlər. 1542 "qaynar xətt" nömrəsinə zənglər də bütün "Bakcell" abunəçiləri üçün tamamilə pulsuzdur.

Həmçinin, şirkət abunəçilərinə xüsusilə vacib olmadıqda, Müştəri Xidməti Mərkəzlərinə getmək əvəzinə "Mənim Bakcellim" tətbiqetməsindən istifadəni və ya 555 Əlaqə Mərkəzinə zəng etməyi tövsiyə edib. "Bakcell" şirkəti həssas əhali qruplarına dəstək göstərmək üçün digər KSM təşəbbüsləri üzərində işləyir.

№ 55 (4186) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

11-13 APREL 2020-ci il

www.baki-xeber.com





**Qoç** - Bu gün əlverişli günlərdən sayıla bilməz. Bununla belə, o, əvvəlki günlərdən daha yaxşı keçəcək. İşlə bağlı anlaşılmazlıqlar aydınlaşacaq, sizi maraqlandıran bütün suallara cavab alacaqsınız.



**Buğa** - Alış-veriş etmək olar. Bundan başqa, hansısa böyük mərasimə hazırlıq üçün çox yaxşı gündür. Siz təşkilati məsələlərin öhdəsindən çox gözəl gələcək, heç bir detalı gözdən yayındırmayacaqsınız.



**Əkizlər** - Əlverişli gündür. Uğur sizin tərəfinizdədir. Əgər təşəbbüs göstərsəniz və çalışqan olsanız, çox şey əldə edə bilərsiniz. Bürcün bəzi nümayəndələri gözlənilməz əngəllərlə qarşılaşsalar da, onları müvəffəqiyyətlə aşacaqlar.



**Xərçəng** - Çox diqqətli olun! Bu çətin və gərgin gün ehtiyatlılıq tələb edir. Xüsusilə, yüksək ictimai və ya karyera pilləsində olan adamlarla ünsiyyətdə ehtiyatlı olmaq lazımdır. Maddi itkilər mümkündür.



**Şir** - İşlər vaxtınızı çox alsa da, yaxınlarla ünsiyyətə də vaxtınız qalacaq. Gün başqa şəhərlərdə yaşayan ailə üzvlərinizlə bağlı xoş xəbərlər vəd edir. Planlaşdırılmamış səfərlər mümkündür.



**Qız** - Ulduzların təsiri xarakterini dəyişir, çətin günlərin yerini zövqlü günlər tutacaq. Bu gün bir çox başlanğıclarda, o cümlədən, ən cəsarətli addımlarda bəxtiniz gətirəcək. Bir sıra biznes proseslərini nəzarət altına almaq mümkün olacaq.



**Tərəzi** - Hadisələrin əlverişli inkişafından iş problemlərinin həlli üçün yararlanın. Əgər indi işgüzar aktivlik göstərməsəniz, bədxahlarınız bundan irəliyə çıxmaq üçün istifadə edəcəklər.



**Əqrəb** - Gün ailə üzvləri və yaxın dostlarla ünsiyyət üçün münasibdir. Siz ehtiyac olduğunda hər kəs üçün həm dəstək sözləri, həm də ağıllı məsləhətlər tapacaqsınız. Dəyərli hədiyyələr, iri pul gəlirləri mümkündür.



**Oxatan** - Bu gün çoxlu münaqişələr, mübahisələr gözlənilir. Üstəlik, onları işdə qoymaq mümkün olmayacaq və evdə də hər şey qaydasında deyil. Xoşbəxtlikdən, fikrini xüsusilə vacib saydığınız adam sizin tərəfinizdədir və onun dəstəyinə şübhə etməyə dəyməz.



**Oğlaq** - Yaxınlarınızla mübahisələr mümkündür. Siz fikir ayrılıqlarına tezliklə son qoymaq üçün əlinizdən gələni edəcək və buna nail olacaqsınız. Bundan başqa, nə vaxtsa bilməyərəkdən xətrinə dəydiyiniz adamlarla barışa bilərsiniz.



**Dolça** - Bu gün əvvəlki iki günlə müqayisədə o qədər də uğurlu deyil. İşgüzar aktivlik azalır, şərait isə təşəbbüskarlıq, eləcə də, inad tələb edir. Yalnız köhnə dostlara və sınanmış müttəfiqlərə bel bağlaya bilərsiniz.



**Balıqlar** - O qədər də yaxşı vəziyyət deyil. Görünür, siz səhvə yol vermisiniz və ona görə cavab verməyin vaxtı çatıb. Vəziyyət ümidsiz deyil, amma ondan çıxış yolu tapmaq çox çətindir: hiylə işlətmək və fəndgirlik etmək lazım gələcək.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Azercell" NNTV tətbiqi ilə dünyanın ən çox baxılan televiziya kanallarını təqdim edir!

*Abunəçilər 200-dən artıq ən populyar televiziya kanalını yüksək keyfiyyətdə izləyə biləcəklər*

**"Azercell Telekom" yeni NNTV mobil TV tətbiqi vasitəsilə ən çox baxılan televiziya kanallarını abunəçilərinə təqdim edir. Bu tətbiq "Azercell" istifadəçilərinə çox rahatlıqla və sərfəli qiymətlərlə yerli və xarici ən populyar televiziya kanallarını yüksək keyfiyyətdə izləmək imkanı verir.**

İndi "Azercell" abunəçiləri NNTV tətbiqi ilə daha çox - 200-dən artıq dünyanın ən baxımlı kanalını izləyə biləcəklər. Burada hər zövqə uyğun tamaşaçı marağını təmin edəcək televiziya kanallarını tapmaq mümkündür. Belə ki, abunəçilər mobil TV tətbiqi vasitəsilə bədii film, musiqili proqramlar, uşaq, əyləncə kanallarını fasiləsiz olaraq yüksək səviyyəli HD formatda izləyəcəklər. NNTV İdman paketinə abunə olmaqla isə ən populyar matçlar və idman yarışlarına baxmaq imkanı mövcuddur. Heç bir əlavə avadanlıq olmadan telekanalları izləmək imkanı verən bu texnoloji yenilikdən həm fakturalı, həm də fakturasız xətt abunəçiləri yararlana bilər. Xidmət Android/IOS əməliyyat sistemli cihazlar üçün nəzərdə tutulub. Qeyd edək ki, abunəçilərin rahatlığını təmin edərək, 200-dən artıq dünyanın ən baxımlı kanalını izləmək üçün onlara 2 növ tarif - günlük və aylıq paket, İdman paketinə isə aylıq abunəlik təklif olunur. Xüsusilə vurğulamaq istərdik ki, NNTV-yə ilk dəfə qoşulanlar 7 gün ərzində mobil TV-dən tamamilə ödənişsiz istifadə edəcəklər. Yalnız 1 həftəlik istifadədən sonra xidmət ödənişli əsaslarla təqdim ediləcək. NNTV xidməti ilə bağlı ətraflı məlumatla https://www.azercell.com/az/personal/services/partner_services/mobiltv/ internet səhifəsində tanış olmaq mümkündür.

Dünyada baş verən məlum vəziyyətlə bağlı özünün və cəmiyyətin sağlığı naminə hər kəsin evdə qalmağı tövsiyə olunur. Bunu nəzərə alaraq, "Azercell" şirkəti bütün istifadəçilərinə zamanlarını səmərəli və maraqlı keçirə bilmələri üçün davamlı olaraq müxtəlif kampaniyalar və xidmətlər təklif edir. Belə ki, "Azercell" abunəçilərinin "Zvuk" aylıq paketinə qoşulmaqla mobil internetə əlavə heç bir ödəniş etmədən xidmətdən "Azercell" şəbəkəsində tam limitsiz istifadə imkanı var. Həmçinin, eyni anda 12 xarici dil öyrənmək imkanı verən dünyaca məşhur xarici dil öyrənmə mobil tətbiqi "Busuu" 24 mart-30 aprel tarixlərində aylıq paketi 50% endirimlə "Azercell" abunəçilərinin ixtiyarına verilib. Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Azercell Telekom" MMC "Abunəçi bilgilərinin dəqiqləşdirilməsi" xidmətini təmənnasız təqdim edir!

**Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC abunəçilərinə ən yaxşı müştəri təcrübəsi yaşatmaq istiqamətində fəaliyyətini davam etdirir.**

Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə tətbiq edilən xüsusi karantin rejimini nəzərə alan "Azercell", abunəçilərinin rahatlığını təmin etmək məqsədilə "Abunəçi bilgilərinin dəqiqləşdirilməsi" xidməti təqdim edir. Artıq "Azercell" abunəçiləri istifadələrində olan nömrənin rəsmi sahibini şirkətin Müştəri Xidmətləri ofislərinə yaxınlaşmadan müəyyən edə biləcəklər. Bunun üçün 6800 qısa nömrəsinə boş SMS göndərmək və ya telefonun ekranında *680#yes kombinasiyasını yığmaq kifayətdir. Cavab olaraq abunəçiyə nömrənin rəsmi sahibinə aid müvafiq bilgilər (ad, soyad və ata adı) göndəriləcək. Karantin dövründə "Azercell" abunəçiləri bu xidmətdən təmənnasız yararlana biləcəklər. Onu qeyd edək ki, "Abunəçi bilgilərinin dəqiqləşdirilməsi" xidməti yalnız fikizi şəxs olan abunəçilər üçün nəzərdə tutulub. "Azercell" müştərilərini sosial izolyasiya tədbirlərinə riayət etməyə çağırır və onlara möhkəm cansağlığı arzu edir! Xidmət haqqında ətraflı məlumat üçün: https://www.azercell.com/az/personal/campaigns/monthly/number/ səhifəsinə daxil olun. Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.



## İlk dəfə Günəşin ən keyfiyyətli formatda yaxından fotosu çəkildi

**Günəşin bu vaxtadək ən yüksək keyfiyyətdə olan fotosu çəkilib.**

"The Sun" xəbər verir ki, şəkil NASA-nın Hi-C teleskopundan çəkilib. Fotodan göründüyü kimi, Günəşin səthində plazma telləri var. Həmçinin, məlum olub ki, Günəşin səthi düşünüldüyündən daha qarmaqarışıqdır.

Mərkəzi Lankaşir Universiteti ilə NASA-nın "Marshall Space Flight Center"in birgə araşdırması nəticəsində Günəşin səthinin qaranlıq yox, uzunluğu yüzlərlə kilometr olan elektrikli qaz telləri ilə dolu olduğu aşkarlanıb. Hər bir teldəki temperaturun 1.8 milyon faranheyt (999982°C) olduğu düşünülür. Bu barədə məlumat "Astrophysical Journal"da dərc edilib.

## İranda 100 yaşlı kişi koronavirusa qalib gəldi

**İranın Elburs əyalətində yaşayan 100 yaşlı xəstə koronavirusa qalib gəlib.**



"Milli.Az" bildirir ki, Elburs Tibb Elmləri Universitetinin Sarallah Xəstəxanasında müalicə alan kişi evə buraxılıb. Onun əyalətdə infeksiyaya yoluxmuş ən yaşlı şəxs olduğu bildirilir. Qeyd edək ki, daha əvvəl İranda 102 və 106 yaşlı şəxslər infeksiyaya qalib gəlmişdi. Son rəqəmlərə görə, İranda 64 min 586 nəfər koronavirusa yoluxub. 3 min 993 nəfər ölüb, 29 min 812 şəxs sağalıb.

## Evdən çıxmadan yeni "Nar" abunəçisi ol!

**Hər zaman xidmətlərini istifadəçilərin tələbləri əsasında formalaşdıran "Nar", xüsusi karantin rejimində müştərilərinə dəstək məqsədilə yeni formatda nömrə satışına başlayıb.**

Pandemiya müddətində müştərilər "narsim.az" vebsaytı üzərindən almaq istədikləri nömrəni seçib birbaşa evə çatdırılma xidmətindən yararlana bilərlər. Çatdırılma sifarişin verildiyi müddətdən sonra 24 saat ərzində həyata keçirilir.

Yeni xidmətdən istifadə etmək üçün müştərilər "narsim.az" saytında nömrə sifarişi zamanı müvafiq bölmədə yaşayış ərazisini qeyd etməlidirlər. Bundan sonra yaxın ərazi üzrə təyin olunmuş diler müştəri ilə əlaqə saxlayaraq ünvana çatdırılmanı təmin edir. Qeyd edək ki, bu xidmətdən paytaxt sakinləri ilə yanaşı, digər bölgələrdə yaşayan vətəndaşlar da yararlana bilərlər.

Mobil operatorun koronavirusla mübarizəyə dəstək məqsədilə yeni istifadəyə verdiyi digər bir xidmət də "Səyyar Nar" layihəsidir. Bu xidmət vasitəsilə abunəçilər evdən çıxmadan "Nar" xidmət mərkəzlərində göstərilən bütün xidmətləri əldə edə bilərlər. Müraciətlər 777 "Çağrı mərkəzi" üzərindən qəbul edilir. Müraciət zamanı xidmətin göstəriləcəyi dəqiq ünvan, əlaqə nömrəsi və lazım olan xidmət növü qeyd edilməlidir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,7%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks:
*510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.